# Can sənə qurban, Laçın!



**Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli bəyanata əsasən, Laçın rayonu dekabrın 1-də Azərbaycana qaytarılıb.**

Həmin gün dövlətimizin başçısı xalqa müraciətində bildirmişdi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxartdı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

*(ardı 5-ci səhifədə)*


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 265 (30669) 1 dekabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Cənubi Qafqaz və fəlakətin Ermənistan adı

*Yaxud erməni amili tarixilikdən geosiyasi konfrontasiyalara doğru*

**2019-cu ildə Ermənistan baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirmişdi. 44 günlük müharibədən sonra isə Paşinyan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirdi. İlk baxışdan, ortada siyasi lider, ölkə rəhbəri adına son dərəcə böyük bir rəzalət görünürdü.**




Əlbəttə, nəinki rəzalətdən, miskinlikdən də danışmaq mümkündür. Ancaq o zaman heç nə təəccüblü deyildi. Ona görə ki, məsələnin başqa tərəfləri də var idi. Bu qeydlərimizdə həmin tərəflərdən söz açacaq, eyni zamanda, Cənubi Qafqaz siyasi akvatoriyasındakı indiki durumun həssas məqamlarına diqqət yetirəcəyik. Yəni, mövzumuz Ermənistanın məhvi perspektivini yaxınlaşdıran məqamlar barədədir. Bəri başdan deyək ki, nəticəyə sonda gələcəyik. Hələlik isə...

*

Nikol "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirəndə də, onun komandasındakılar "yeni ərazilər uğrunda yeni müharibə" şüarını irəli sürəndə də "sifariş"in diktə etdiyi şərtlər daxilində davranırdı. Paşinyan müharibə yolu ilə Qərbin Cənubi Qafqazda möhkəmlənməsini gerçəkləşdirməli idi. Axı Qərbə müstəqil, öz sözünü deyən, prinsiplərinə sadiq olan Azərbaycan lazım deyildi. "Demokratik Ermənistanın" "avtoritar Azərbaycanı" yenməsi Qərbin ölkəmizin təbii sərvətlərinə sahiblənməsi baxımından prioritet sayılırdı. Plan 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə əsası qoyulan əməkdaşlıq formalarını yeniləməyə hesablanmışdı.

Bəli, düzəni dəyişdirmək üçün Azərbaycanın işğalı məsələsi gündəmə gəlmişdi. Eləcə də təcavüz nəticəsində ölkəmizin xalq tərəfindən seçilmiş qanuni hakimiyyətini devirmək nəzərdə tutulurdu. Başqa cür mümkün deyildi. Azərbaycan hakimiyyəti güclü idi, üstəlik, xalq—iqtidar vəhdəti kənar planların gerçəkləşməsinə şərait tanımırdı. İrəvan məhz buna görə Qarabağ üzrə danışıqlar prosesini pozmuş, müharibə ritorikasına üstünlük vermişdi.

Lakin Ermənistanın 44 günlük müharibədəki acınacaqlı məğlubiyyəti Qərbin planlarını tamamilə alt-üst etdi. Paşinyan əvvəldə də dediyimiz kimi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaq məcburiyyətində qaldı. Ancaq "erməni kartı"nı diri saxlamaq istəyən Qərb erməni milli identikliyi deyilən cəfəngiyyatın Qarabağ strukturuna kökləndi ki, heç olmasa, bu yolla Azərbaycana təsir imkanlarını saxlasın. Əlbəttə, Qarabağda separatizmin qalması, eyni zamanda, Qərbin Ermənistanın bölgəyə nəzarəti məsələsində, bütövlükdə, Cənubi Qafqazda daha böyük arealda nüfuz sahibi olmaq niyyətindən qaynaqlanırdı.

*(ardı 3-cü səhifədə)*

## Gürcüstanda "diplomat qiyamı"

*Qərb qonşu ölkədə dövlət çevrilişi ssenarisini reallaşdırmaq istəyir*



**Gürcüstan Avropa İttifaqı (Aİ) ilə üzvlük danışıqlarını 2028-ci ilə qədər dondurub. Bunun üçün ciddi əsaslar olduğu qeyd edilir. Bildirilir ki, 2009-cu ildən başlayaraq aparılan 15 illik danışıqlar nəticə verməyib. Gürcüstan ciddi təhdidlərlə üzləşərkən, Avropa İttifaqının zəruri dəstəyini görməyib.**

Amma bütün əsaslandırmalara rəğmən, Baş nazir İrakli Kobaxidzenin bu qərarı elan etməsindən sonra Tbilisidə vəziyyət gərginləşib. Qərb siyası mərkəzlərinin təsir dairəsində olan müxalifət qüvvələri küçələrə axışıb. Parlament binasının önündə toplaşan etirazçılarla polis arasında insident yaşanıb. Polisə müqavimət göstərən aksiya iştirakçıları soyuq silahlardan istifadə ediblər. Qarşıdurma zamanı Daxili İşlər Nazirliyinin 30 nəfərdən çox əməkdaşı xəsarət alıb.

Gürcüstan prezidenti Salome Zurabişvilinin aksiya iştirakçılarına dəstək verməsi vəziyyəti bir qədər də gərginləşdirib. O, tərəfdarlarını təhlükəsizlik qüvvələri ilə qarşıdurmaya təhrik edən bəyanatlar səsləndirib. Zurabişvilinin belə hərəkətləri son 2 il ərzində dəfələrlə təkrarlandığı üçün gözlənilməz olmayıb. O, Gürcüstanda "Xarici təsirlərin şəffaflaşdırılması haqqında" Qanun qəbul olunanda da eyni formada davranmışdı. Hökuməti deyil, müxalifəti dəstəkləmişdi. Avropadan gələn təlimatlara uyğun olaraq, qanunun qəbul edilməməsi üçün var gücü ilə çalışmışdı. Bu baxımdan prezidentin indi də müxalifətlə birgə hərəkət etməsi hökumət üçün xüsusi çətinlik yaratmayıb.

*(ardı 2-ci səhifədə)*

# Şərqdən Qərbə əsrin yolu

*Orta Dəhlizlə daşımalar 2030-cu ilədək 11 milyon tona çatacaq*



**Asiya İnkişaf Bankının yaydığı məlumata görə, Orta Dəhlizlə həyata keçirilən yükdaşımalarda son illər ərzində nəzərəçarpacaq artım müşahidə olunub, tranzit daşımaların həcmi 2022-ci ilə nisbətən 2023-cü ildə 86 faiz artaraq 2,7 milyon tona yüksəlib. Cari ildə isə tranzit daşımaların həcmi 4 milyon ton proqnozlaşdırılıb. Bu göstərici Orta Dəhlizdə yükdaşımaların həcminə və qlobal ticarətin artan tələblərinin ödənilməsinə görə rekord göstərici kimi yüksək qiymətləndirilib.**




Dəhlizdən səmərəli istifadə nümunələrindən biri 2022-ci ilin may ayında Finlandiyanın Nurminen Logistics nəqliyyat şirkətinin Çindən Avropaya yeni marşrutu gerçəkləşdirməsidir. Bu marşrut Orta Dəhlizə böyük tələbin olduğunun bariz ifadəsidir.

Asiya İnkişaf Bankının məlumatında daha sonra bildirilir ki, hazırda Orta Dəhlizin gücü ildə 5,8 milyon tondur. Bu isə Şimal Dəhlizindən xeyli azdır. Səmərəli tədbirlər həyata keçirilərsə, onun tutumunun getdikcə artacağı gözlənilir. İqtisadi təhlillərə əsaslanaraq 2030-cu ilə qədər Çin və Avropanın qərb sərhədi arasında səyahət vaxtının iki dəfə azalacağı, yükdaşımaların həcminin isə üç dəfə artaraq 11 milyon tona çatacağı proqnozlaşdırılır.

Qeyd edək ki, Azərbaycan Orta Dəhlizin inkişafı istiqamətində reallaşdırılan layihələrin gerçəkləşdirilməsini daim diqqət mərkəzində saxlayıb. Bununla əlaqədar bir sıra mühüm layihələr və proqramlar reallaşdırılıb.

*(ardı 7-ci səhifədə)*

## KTMT can üstədir



Səhifə ⇨ 6

## Füzulinin ölməz dühası



Səhifə ⇨ 10

## İrəvanda hakimiyyətdaxili gərginlik

**Hayastanda müstəqil təşkilatların keçirdikləri son rəy sorğuları Nikol Paşinyanın reytinqinin xeyli aşağı düşdüyünü göstərir. Hazırda baş nazirin reytinqi "məxməri inqilab" yolu ilə hakimiyyətə gəldiyi 2018-ci ilin mayından indiyədək ən aşağı həddədir. Bunun da səbəbləri aydındır. Çünki iqtidar seçkilərdən ötən müddət ərzində verdiyi vədlərin əksəriyyətini yerinə yetirə bilməyib. Həm daxili, həm də xarici siyasətdə ardıcıl uğursuzluğa düçar olub.**



Hazırda ölkənin ikinci böyük şəhəri olan Gümrüdə, sözün əsl mənasında, hakimiyyət böhranı yaşanır. Bu gün Gümrüdə baş verənlər Paşinyanın gələcəkdə bütün ölkə üzrə hakimiyyəti əldə saxlamaq üçün həyata keçirəcəyi planların məşqi də hesab oluna bilər. Baş verənlərlə bağlı politoloq Stepan Danielyanın şərhi bu mənada diqqəti cəlb edir: "Gümrü ağsaqqallar şurası (Ermənistanda şəhərləri kollegial qaydada idarə edən orqan belə adlanır–S.H.) ətrafında cərəyan edən hadisələr dönüş anıdır. Ermənistanda hakimiyyətin mənimsənilməsi, qəsb olunması prosesi gedir. Onlar bu təcrübəni digər icmalarda da tətbiq etməyə çalışacaqlar".

S.Danielyan bildirib ki, Paşinyanın rəhbərlik etdiyi "Mülki müqavilə" partiyası Gümrü ağsaqqallar şurasında azlıq təşkil edir. Çoxluq mandatlarından imtina etdikdən sonra hazırkı baş nazir yeni seçkilərə qədər müvəqqəti mer vəzifəsinə bitərəf namizəd irəli sürmür, "Mülki müqavilə" üzvləri ilə "tərəfdarları" arasında daxili seçkilər – praymeriz keçirir: "Hakim partiyanın bu qərarı konstitusiyanın mətninə və ruhuna, sağlam düşüncəyə ziddir. Bu, açıq-aşkar hakimiyyətin qəsb edilməsidir və uğurlu olarsa, bu təcrübə digər icmalara da yayılacaq. Gələcəkdə isə yerli hakimiyyət orqanlarına təyin olunanlarının köməyi ilə parlament seçkilərində səs toplamağa çalışacaqlar".

*(ardı 3-cü səhifədə)*

# Heydər Əliyev Fondunun Səudiyyə Ərəbistanı ilə birgə layihələri





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ər-Riyadda Səudiyyə Ərəbistanının Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiə ilə görüşüb.**

Görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Kral Salman Mərkəzi ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın inkişafı, eləcə də gələcək birgə layihələr istiqamətində müzakirələr aparılıb.

Abdullah Ər-Rabiə, eyni zamanda, İki Müqəddəs Ocağın Xadimi Kral Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanının vəliəhdi, Nazirlər Şurasının sədri şahzadə Məhəmməd bin Salman Al Səudun salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib.

***XQ***

# Naxçıvanda dövlət – din münasibətləri müzakirə edilib




**Dünən Naxçıvanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dövlət – din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində" mövzusunda konfrans keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli məclisi giriş sözü ilə açaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilmiş genişmiqyaslı tədbirlərin əhəmiyyətindən danışıb. O, Ulu öndərin böyük səyləri nəticəsində ölkəmizdə vicdan və etiqad azadlığının, dini təhlükəsizliyin təmin edildiyini, sağlam dini ideologiyanın formalaşdığını vurğulayıb.

Bildirilib ki, bu gün Azərbaycanda din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə uyğun həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini dəyərlərin, tolerantlığın və multikultural ənənələrin tənzimlənməsi istiqamətində sistemli iş aparılır. Artıq Azərbaycan dünyaya dövlət – din modelini təqdim edir, ölkəmizdəki dini dözümlülük və tolerantlıq nümunə kimi qəbul olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva cəmiyyətdə dini həmrəyliyin yaradılmasına, qlobal səviyyədə dinlərarası dialoqun təşviq edilməsi işinə ciddi töhfələr verir. Naxçıvanda da ölkə Prezidentinin dövlət – din münasibətlərinin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr uğurla icra edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında Azərbaycanın ötən müddətdə qazandığı nailiyyətlərdən danışaraq qeyd edib ki, Qarabağ zəfərimizə və digər qələbələrimizə təminat yaradan ən böyük amillərdən biri milli birliyimizdir. Respublikamızda dövlət – din münasibətlərinin mükəmməl modellərindən birinin yaranmasında cəmiyyətimizdəki dinlərarası harmoniya, birgəyaşayış mühiti mühüm rol oynayıb. Komitə sədri söyləyib ki, konfransın əsas missiyası da tarixi nailiyyətimiz olan dövlət – din münasibətləri modelini qorumağa və daha da möhkəmləndirməyə imkan verən ideya və təkliflərin öyrənilməsindən ibarətdir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Azərbaycan vətəndaşlarının vicdan azadlığı hüququnun ölkə qanunvericiliyində öz əksini tapdığını deyib. Dövlətin dinə qayğısından bəhs edən millət vəkili azad olunmuş ərazilərdə dini abidələrin abadlaşdırılmasının bunu bir daha təsdiq etdiyini söyləyib. Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişafı istiqamətində qurulmuş siyasi ənənənin dinamikasının artdığını, ölkə Prezidentinin işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini daim diqqətdə saxladığını vurğulayıb.

Konfrans işini "Dövlət-din münasibətləri: ideoloji təhlükəsizlik müstəvisində" və "Milli-mənəvi dəyərlərə qayıdış: ənənə və müasirlik" mövzusunda panellərlə davam etdirib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

**2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında icmanın bir qrup üzvü ilə görüşdəki tarixi çıxışında cənab Prezident İlham Əliyevin fəaliyyətimizlə bağlı tövsiyələrindən biri də o oldu ki, Qərbi Azərbaycan həqiqətləri və Qərbi azərbaycanlıların qayıdış hüququ ilə bağlı məsələ beynəlxalq müstəviyə çıxarılmalı, dünya ictimaiyyətinə çatdırılmalıdır.**

# Qərbi Azərbaycana Qayıdış

## *Dekabrın 5-də bu mövzuda beynəlxalq konfrans keçiriləcək*

**Əziz ƏLƏKBƏRLİ,**
**Qərbi Azərbaycan İcmasının sədri,**
**Milli Məclisin deputatı**



Bununla bağlı xarici mütəxəssis və ekspertlərin iştirakı ilə ildə bir dəfə beynəlxalq konfransın keçirilməsi də həmin tövsiyələr sırasındadır. 2023-cü il dekabrın 5-də Qərbi Azərbaycan İcması "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: qlobal kontekst və ədalətli həll" mövzusunda ilk beynəlxalq konfransını keçirdi və burada 28 ölkədən 44 nümayəndə iştirak etdi.

Bu il dekabrın 5-6-da isə Qərbi Azərbaycan İcması "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda ikinci beynəlxalq konfransın keçirilməsinə hazırlaşır. Budəfəki konfransımıza 51 ölkədən 101 nəfər xarici nümayəndəsinin qatılacağı gözlənilir.

Nəyə görə 5 dekabr? Ona görə ki, sonuncu deportasiya zamanı 1988-ci il noyabrın 24-də Qərbi Azərbaycanda soydaşlarımızın kütləvi şəkildə ölkədən qovulmasına Ermənistan dövləti tərəfindən start verilmiş və yerli sovet, partiya və hüquq-mühafizə orqanlarına tapşırılmışdı ki, 10 günün tamamında bu proses başa çatdırılmalıdır. Ermənilər, Azərbaycanın Zəngilan rayonu sərhədində olan Nüvədi kəndi istisna olmaqla, bu işi dekabrın 5-də yekunlaşdırdılar. Ona görə də Qərbi Azərbaycan İcması həmin günü – 5 dekabr gününü Deportasiya Günü kimi hər il qeyd edir.

Beləliklə, 5 dekabrda konfransımızın ilk günündə hər birində beş məruzə olmaqla, beş paneldə məruzələr dinləniləcək. Bütün məruzəçilər xarici ekspertlər olacaqlar. Məruzələr son iki əsrdə Qərbi azərbaycanlıların məruz qaldıqları faciələr və onların qayıdış hüququ üzərində fokuslanacaqdır.

Həm tədbirdən bir gün əvvəl, həm də tədbirin gedişində xarici qonaqlarla icmanın və icma strukturlarının rəhbərllərinin ikitərəfli və çoxtərəfli görüşlərinin keçirilməsi də nəzərdə tutulmuşdur.

Dekabrın 6-da isə tədbirin zəngin proqrama malik mədəni hissəsi baş tutacaqdır. Bu zaman qonaqlar Qərbi Azərbaycan mədəni irsi ilə bağlı sərginin, Qərbi Azərbaycan mətbəxinin, musiqi proqramının şahidi olacaqlar.

Heç şübhəsiz, bu konfrans Qərbi Azərbaycan həqiqətlərinin və Qərbi Azərbaycandakı ata-baba yurdlarından ermənilər tərəfindən qovulub çıxarılan soydaşlarımızın qayıdış hüququ ilə bağlı məsələnin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində irəliyə doğru atılmış növbəti böyük addım olacaqdır.

# Gürcüstanda "diplomat qiyamı"



**(əvvəli 1-ci səhifədə)**

İndiki halda Gürcüstanda gərginliyi artıran başqa bir amil də vardır. Qərb mərkəzləri aksiya iştirakçılarını ruhlandırmaq üçün yeni bir variantdan istifadə edirlər. Avropa dövlətlərinin xüsusi xidmət orqanları tərəfindən ələ alınmış bir qrup gürcü diplomat aksiya iştirakçılarını dəstəkləyiblər. Gürcüstan Xarici İşlər Nazirliyinin müxtəlif ölkələrdəki səfirliklərində çalışan 92 əməkdaşı birgə bəyanat imzalayaraq, öz dövlətlərinin qərarına qarşı çıxıblar. Onlar rəsmi Tbilisidən Avropa və Avroatlantik strukturlara qoşulmaq yönündə danışıqlara getməsini tələb ediblər. Diqqət yetirəndə görürük ki, bəyanata imza atan diplomatlar ya birbaşa Avropa dövlətlərində çalışırlar, ya da ABŞ-nin təsir dairəsində olan ölkələrdə fəaliyyət göstərirlər. Çexiyada, Bolqarıstanda və Cənubi Koreyada olan diplomatik nümayəndəliklərin simasında bu məsələ öz təsdiqini tapmış olur.

Qeyd edək ki, "ələ alınmış diplomatlardan", digər rəsmi şəxslərdən açıq -aşkar istifadə metodu ABŞ və Avropa İttifaqının ayrı-ayrı dövlətlərdə həyata keçirdiyi təxribat ssenarilərində görünən yeni elementdir. Onlar, adətən, bu hərəkətləri vətəndaş cəmiyyəti institutlarının vasitəsilə "demokratiyaya", "söz və ifadə azadlığına dəstək" adı ilə həyata keçiriblər. İndi isə kölgədə bəslədikləri elementləri ön cərgəyə çıxarıblar. ABŞ və Avropa İttifaqı Gürcüstanda yenilənmiş təxribat mexanizmini sınaqdan çıxarırlar. Təşkil etdikləri etiraz aksiyalarına həm də ələ alınmış rəsmi şəxsləri, o cümlədən, diplomatları qatırlar. Bu, faktiki olaraq, dövlət çevrilişi ssenarisidir. Qərbpərəst qüvvələr Gürcüstanda çevriliş planını icra edirlər.

Məlumat üçün qeyd edək ki, bu ssenarinin Gürcüstandan öncə Azərbaycanda tətbiq edilməsinə də cəhd göstərilib. "Diplomat qiyamı"na əsaslanan proqramın ilk epizodları 2015-ci ildə təzahür edib. Hadisənin izlənilməsi nəticəsində müəyyən edilib ki, Qərb insitutları Azərbaycanda "radikal müxalifət", "QHT" və "KİV"lərdən başqa, həm də "ələ alınmış diplomatlar" üzərində işləyiblər. Qərbin maraqlarına uyğun təxribatlar törətməyə hazırlaşan "kölgə qruplar" formalaşdırıblar. Bu barədə Azərbaycan KİV-ində çoxsaylı məqalələr dərc edilib.

İndi Gürcüstanda çox qabarıq şəkildə təzahür edən "diplomat qiyamı" ABŞ və Avropa İttifaqının hədəf ölkələr üzrə hazırladıqları yeni təxribat ssenarilərindən xəbər verir. Bu ssenarilərdə rol alan komponentlərdən biri də "ələ alınmış diplomatlar"dır. Həmin ssenari təkcə Gürcüstan üçün nəzərdə tutulmayıb. Əgər sabah Paşinyan Qərbə qarşı hansısa sürüşkən addımlar atacaqsa, o da belə hücumların hədəfinə çevriləcək, diplomatların təpkisini görəcək.

Azərbaycan isə həmişə olduğu kimi, bu dəfə də oyunları poza bilib. Özünün ayıq-sayıq davranması ilə bu planı da alt-üst edə bilib.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

# FHN-in mülki müdafiə kursları

**Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin təşkilatçılığı ilə 25-29 noyabr tarixlərində rəhbər heyətin mülki müdafiə kursları keçirilib.**



Məqsəd idarə, müəssisə və təşkilatların rəhbər heyətinin mülki müdafiə və fövqəladə hallardan mühafizə sahəsində biliklərinin artırılması, onların fövqəladə hallar zamanı rəhbərlik etdikləri qurumun şəxsi heyətinin mühafizəsi üzrə effektli idarəetmənin həyata keçirilməsi olub.

Kurslarda mərkəzi icra hakimiyyəti orqanlarından olan "Mülki Müdafiə qərargah rəisləri" və digər regional mərkəzlərin əhatə etdiyi ərazilər üzrə "Obyekt rəhbərləri" kateqoriyasından olan dinləyicilər iştirak edib.

Tədbirin sonunda dinləyicilərə kursları bitirmələri barədə sertifikatlar təqdim olunub.

***XQ***

# Moldova portalı COP29-dan yazıb

**Bakıda keçirilən COP29 dünya mediasının gündəmində əsas müzakirə mövzularından biri kimi qalmaqda davam edir.**

Moldovanın "Noi.md" xəbər portalında rus və rumın dillərində nəşr edilən "Azərbaycan COP29-da ekoloji diplomatiya sahəsində sıçrayış edib" sərlövhəli məqalədə nüfuzlu beynəlxalq konfransın təşkili, müzakirə olunan strateji mövzular barədə məlumat verilib.

Məqalədə bildirilir ki, hətta gecə vaxtı aparılan mürəkkəb danışıqların nəticəsi artıq "Bakı sıçrayışı" adlandırılan razılaşma oldu: inkişaf etməkdə olan ölkələrə 2035-ci ilədək iqlim maliyyəsi üçün ildə ən azı 300 milyard dollar ayrılacaq.

Məqalədə Prezident İlham Əliyevin COP29-da əldə olunan razılaşmanı "epoxal mərhələ" adlandırdığı qeyd edilib.

BMT-nin Baş katibi Antonio Quterreş tədbirin təşkilatçılarının peşəkarlığını xüsusilə yüksək qiymətləndirdi və onun uğurunda könüllülərin mühüm töhfəsini vurğuladı. Yekun bəyanatında Quterreş COP29-da əldə olunan razılaşmanın iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyduğuna diqqət çəkdi.

Yazıda xarici ölkələrin dövlət başçılarının COP29 və onun nəticələrinə dair fikirləri də yer alıb.

# Cənubi Qafqaz və fəlakətin Ermənistan adı

**(əvvəli 1-ci səhifədə)**

Lakin 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri bu kimi istəklərin üzərindən xətt çəkdi. Üstəlik, Rusiyanın Qarabağ üzərindən regiona təsir imkanlarını saxlamaq cəhdləri puça çıxdı. Çünki 2020-ci ildən 2023-cü ilədək Ermənistanı ram etmək, onu yenidən Moskvanın orbitinə qaytarmaq mümkün olmadı. Yəni Kreml hazırda Gürcüstanın timsalında qazandığı qələbəni Ermənistanda əldə etməyi bacarmadı.

***

Azərbaycanda hazırda sabitlikdir. Üstəlik, Bakı 2020-ci il qalibiyyətindən sonra daha qətiyyətlidir, kənar təsirlərə qarşı ciddi müqavimət formalaşdırmağı bacarıb. Onun malik olduğu mexanizm və resurslar xarici təsirlərin dərhal neytrallaşdırılmasına tam imkan verir. Ümumən isə Cənubi Qafqaz çalxalanmaqdadır. Yox, hələlik, sakitlikdir. Amma durum fırtına öncəsi sakitliyi xatırladır. Hərçənd, Gürcüstanda yaşanan seçki sonrası gərginliyin fonunda bıçağın sümüyə dirəndiyini söyləmək mümkündür. Qərb ölkədə ciddi məğlubiyyətlə üzləşib və var gücü ilə çalışır ki, vəziyyəti öz xeyrinə dəyişsin.

Cənubi Qafqazda marağı olan İran Qərbin regionda möhkəmlənmək niyyətlərinin özü üçün ziyanlı tərəflərini götür-qoy etməyi bacarıb. Hər halda görüntü bunu söyləməyə əsas verir. İslam respublikasının xüsusi təyinatlılarının Azərbaycanın xüsusi təyinatlıları ilə birgə hərbi təlimlər keçirmələri adi hadisə sayıla bilməz. Şübhəsiz, bu təlimlərin xaricə mesaj anlamı var.

Türkiyə sakitdir. Ancaq bu sakitlik heç də loyallıq deyil. Ankara hadisə və prosesləri səbrlə izləyir. Əlbəttə, regionda daha ciddi qarşıdurmaların yaranma ehtimalı barədə düşünür və sanki aktivləşmək üçün tutacaq yer axtarışındadır. Axtaran isə tapır...

Türkiyədən fərqli olaraq Rusiya aktivdir. Ölkə Cənubi Qafqazda iki istiqamətdə "döyüşür". Birincisi, Moskva Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonrakı duruma köklənib, ikincisi isə Ermənistana. Gürcüstanda Kremlin maraqlarına uyğun vəziyyət formalaşıb və indi lazımdır ki, durum sıradan çıxmasın, nəzarət itirilməsin.

Keçək Ermənistana. Ölkədə hazırlıq gedir. Çox güman qarşıdakı müddətdə proses davamlı olacaq. 2026-cı ildə keçiriləcək parlament seçkilərinə hazırlığı nəzərdə tuturuq. Qərb Gürcüstandakı məğlubiyyətin Ermənistanda təkrarlanmaması üçün indidən ciddi fəaliyyətə keçib. 2018-ci ildən üzünü qırxmayan baş nazir N.Paşinyanın saqqalı ilə vidalaşmaqla idarəçiliyin fərqli üzünü göstərəcəyi mesajını verməsi fikrimizin sübutudur. Ermənistanı xüsusi mövqeyə qaldıran başlıca məqam isə onun hazırda Cənubi Qafqaz üzrə çalxalanmaların əsas fiquru rolunda çıxış etməsidir.

Bəli, Ermənistanın arxasında dayanan kollektiv Qərb, konkret desək, onun ABŞ, Fransa və Avropa İttifaqı seqmenti anti-Rusiya ritorikasını Cənubi Qafqaz müstəvisinə daşımaq niyyəti güdür. Bu niyyətdə anti-Azərbaycan motivləri var. Ölkəmizin işğala son qoyması və Qarabağın işğaldan azad olunması fonunda Qərbin regiondakı çəmbərinin daraldığını görürük. Hazırda "istehkam xəttində" Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyası dayanıb. "Binokl diplomatiyası"nın təmsilçilərinin tez bir zamanda NATO missiyasına çevrilmələri mümkündür. Çünki...

Qeyd edək ki, Qərbin diqqəti Cənubi Qafqaza yönəltməsindəki bir müstəsna məqam da onun Ukrayna cəbhəsindəki uğursuzluğudur. Gürcüstandakı məğlubiyyətin Qərb üçün ciddi siqnal mahiyyəti fonunda regionda Ermənistanı möhkəmləndirmək həyati əhəmiyyətlidir. Orada həm 2018-ci il inqilabının nəticələri qorunmalı, həm də rəsmi İrəvan regional maraqlar uğrunda mübarizəyə hazır duruma gətirilməlidir. Baxın, Ermənistan silahlandırılır, eyni zamanda, Paşinyan saqqalını qırxdırıb kadr islahatlarını gerçəkləşdirməklə idarəçilik sistemini gücləndirir. Başqa sözlə desək, rəsmi İrəvan 2026-cı ildə keçiriləcək parlament seçkilərinə də hazırlaşır, Azərbaycanla yeni müharibəyə də.



Hadisələr onu göstərir ki, Ermənistan forpost ampluasından çıxa bilmir, yaxud çıxmaq istəmir. N.Paşinyan bir yandan "Real Ermənistan" ideyasını ortaya atır, ideologiya aşılayır, digər tərəfdən isə Qərbin təhrik etdiyi bataqlığa doğru yön alır. Halbuki, onun üçün hələ 44 günlük müharibədən sonra real Ermənistan obrazında qalmaq şansları var idi. Bu şansı Azərbaycan yaratmış, savaş qalibi olmasına rəğmən İrəvana barış əlini uzatmışdı. Amma rəsmi Bakının jestinə qiymət verilmədi və yenə verilmir.

Bəli, erməni iqtidarı Qərbə sadiqdir və ona "ayı xidməti" göstərməkdə davam edir. Ölkəni bataqlığa sürükləyən də elə budur. Görəsən, vəziyyətdən çıxış yolu varmı? Yəni Paşinyan haqqında durmadan söz açdığı indiki "Real Ermənistan" üçün təhlükənin olduğunu görmür? Heç şübhəsiz, o, hər şeyin fərqindədir. Hakimiyyətə gəlməzdən əvvəl Qarabağı Ermənistanın üzərindən asılmış ağır və tezliklə atılmalı olan yük kimi qələmə verən baş nazirin indi ölkəsini apardığı aqibətdən xəbərsiz duruma düşməsi mümkünsüzdür. Sadəcə, başqa çıxış yolu yoxdur. Adam, sözün əsl mənasında, böyük oyundadır və oyundan çıxmaq üçün şanssızdır.

Hazırda Cənubi Qafqazda yaşanan proseslər fonunda onu demək olar ki, Ermənistan, ümumən, erməni varlığı imperializmin onun əyninə iki yüz il əvvəl biçdiyi libası çıxarmağı bacarmır, missiyasından uzaqlaşa bilmir. Söhbət təfriqə yaratmaq missiyasından gedir. Ermənistan sakit buraxılmır, çünki xaricdə belə düşünürlər ki, erməni dövləti üzərinə düşəni etməlidir! Hətta canı çıxsa belə.

...Ermənistan "missiyasını" yerinə yetirməlidir. Ermənilər dövlət olmanın haqqını qaytarmalıdırlar. Nə ilə, hansı yolla? Məhz forpost kimi çıxış etməklə. Onları yoxdan var edənlər hansısa fərqli durumu əsla yaxına buraxmırlar. Axı erməni varlığı təfriqə yaratmaq, Türk dünyasını parçalamaq naminə ortaya atılmış, ərazi və torpaqla təmin edilmişdi. Bu varlığın nə ictimai şüuru dövlət milləti kimi çıxış etməyə imkan verib, nə də onun özünə aid bir şey olub. Nə əldə edibsə məhz "ayı xidmətlərinin" qarşılığında, mükafat kimi qazanıb. Heç kəs ermənilərin qara qaşlarına, qara gözlərinə aşiq olmayıb.

İstər ABŞ, istər Fransa, istərsə də digər ermənipərəstlərin ermənilərə məhəbbəti olmayıb. Elə Rusiyanın da həmçinin. Baxın, Rusiya Prezidenti Vladimir Putin çıxışlarında Ermənistanı ölkəsinə sığınmağa çağırır. 44 günlük müharibədən sonra da belə çağırışlar olub. Hər halda bütün bunlar adi məsələ deyil. Moskva dünyaya sübut etmək istəyir ki, Ermənistan adlı nə varsa, onun əməyinin bəhrəsidir. Rusiya ölkəni öz əsəri sayır. Onun siyasi istebleşmenti ötən iki yüz ildə də məhz belə düşünüb.

Ümumən, erməni məsələsi öz varlığını Qərb və rus imperializminin müştərək məhsulu kimi sürdürüb. Hətta sovet hakimiyyəti illərində də belə olub. Ermənilər nə istəyiblərsə, sovet rəhbərliyi verib. Nəzərə alaq ki, 1991-1993-cü illərdə Azərbaycan torpaqlarının işğalı hayların öz işi deyildi. Qərb də həmin durumu müşahidə edir və görürdü ki, ermənilər qazanır. Qərb "qazancın" otuz ilə yaxın müddətdə saxlanmasına çalışdı. Bunu Rusiya ilə müştərək şəkildə etdi. Diqqət yetirək, 2018-ci ilədək Qərb – Rusiya ziddiyyətləri özünü müxtəlif məsələlərdə göstərsə də, fikir ayrılıqlarının, konfrantasiyaların Qarabağa heç bir dəxli olmamışdı. ATƏT-in Minsk qrupunun işğalı leqallaşdırmaq yönümlü fəaliyyətinə ara verilmirdi. O qrupun ki, orada ABŞ-nin, Rusiyanın və Fransanın birgə təmsilçiliyi var idi.

Nəhayət, Qərb oyun qaydalarını pozdu. Bəli, proses lap əvvəldən başlamışdı və mövcud tendensiya Ermənistana sirayət edənədək dünyanın ayrı-ayrı nöqtələrində Rusiyanın rolunun məhdudlaşdırılması həyata keçirildi, ölkə nüfuz davası uğrunda mübarizədə bir sıra məğlubiyyətlərlə üzləşdi. Əvvəl Balkanlarda, sonra Gürcüstanda, daha sonra isə Ukraynada Moskvanın mənafelərinə zərbə vuruldu. Nəhayət, Qərb bir neçə istiqamətdən Kremlin, loru dildə desək, ağzının içinə girməyə qərar verdi.

Baxın, indi Qərbin anti-Rusiya cəbhəsinin Ukrayna səngəri var. Azərbaycanın öz maraqlarından çıxış edərək onu bir neçə dəfə dağıtmasına rəğmən, hər dəfə Ermənistan səngərinin yenidən "qazıldığını" görürük. Bu səngər eyni zamanda, İrana qarşı istifadə məqsədi daşıyır. Prosesə isə 2018-ci ildə start verilmişdi. Yəni Ermənistandakı inqilabdan və N.Paşinyanın hakimiyyətə gətirilməsindən sonra.

Paşinyanın iqtidara gətirilməsi erməni məsələsinə isti münasibəti ilə seçilən tərəfləri bir-birinə qarşı qoydu. Nəticədə həmin vaxtadək mövcud olmuş balans pozuldu. Problem ondadır ki, hazırda Nikol "Real Ermənistanı" pozulmuş balans şəraitində qurmağa çalışır. Daha doğrusu, bununla bağlı düşünür. Mövcud fonda İrəvan Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq planlarına alətə çevrilir. Bu durumda sual olunur: Moskva Paşinyana Ermənistan adlı bir şeyin, əslində, heç vaxt olmadığını sübut etməzmi? Əlbəttə, edər. Digər tərəfdən, İrəvan Qərbin təhriki ilə anti-Azərbaycan ritorikasını diri saxlamaqdadır. Elə isə Azərbaycan Ermənistanın onun torpaqları hesabına formalaşdırıldığını yada salmazmı? Yada salar, hətta o yana da keçər. Buna nə İran bir söz deyəcək, nə də Gürcüstan. Türkiyənin isə mövqeyi çoxdan aydındır. Ankara da özünə qarşı ərazi iddiasında olan və iddiasını pataloji xəstəlik halına gətirən bir dövlətin mövcudiyyətini heç istəməz. Güman edirik ki, əlavə şərhə ehtiyac yoxdur. Təkcə onu deyək ki, Ermənistan nə qədər gec deyil, nəticə çıxarmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvanda hakimiyyətdaxili gərginlik

**(əvvəli 1-ci səhifədə)**

Politoloq Danielyanın fikirlərində həqiqət payı az deyil. 2026-cı ilin iyununda Ermənistanda növbəti parlament seçkilərinin keçirilməsi gözlənilir. Paşinyan hazırda var gücü ilə seçkilərə hazırlaşır. Başa düşür ki, seçkilərdə qalib gələ bilməsə, müxalifət cildində hazırda parlamentdə də təmsil olunan Qarabağ klanı ona cinayət işinin açılmasına və uzunmüddətli həbsinə çalışacaq. Çünki klanın "xaç atası" Robert Koçaryan Paşinyanın hakimiyyəti dövründə həbs edilib. Düzdür, o sonradan azadlığa buraxılıb. Amma bu yaxınlarda onunla bağlı cinayət işi yenidən təzələnib. Klanın daha bir nümayəndəsi – ölkənin ikinci prezidenti Serj Sarkisyan da Paşinyanın dövründə cinayət təqibinə məruz qalıb. Onunla bağlı məhkəmə prosesi hazırda da davam etdirilir. Paşinyanı devirəcək qüvvə bütün bunların qisasını ondan almağa çalışacaq. Buna görə də Nikol hazırda əsas diqqətini seçkilərdə qalib gəlməyə yönəldib.

Baş nazirin son vaxtlar hakimiyyət strukturlarında apardığı kadr islahatları da təsadüfi hesab olunmamalıdır. Paşinyan bir müddət öncə bildirmişdi ki, o, hüquq-mühafizə sistemində islahatlara başlasa da, bunun nəticəsi yoxdur. Bundan bir neçə gün sonra hüquq-mühafizə sistemində yüksək vəzifə tutan bəzi şəxslər – daxili işlər naziri Vahe Qazaryan, istintaq komitəsinin sədri Argişti Karamyan, korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Sasun Xaçatryan, ali məhkəmə şurasının sədri Karen Andreasyan vəzifələrindən azad olundular. Həmçinin, ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan və dövlət gəlirləri komitəsinin sədri Rüstəm Badasyan da işdən çıxarıldılar.

İndi isə Nikol hakim partiya daxilində "təmizləmə əməliyyatı"na başlayıb. Paşinyan "Mülki müqavilə"nin deputatları Narek Zeynalyana və Ovik Aqazaryana mandatlarını təhvil vermələrini tapşırıb. Zeynalyan tapşırığı yerinə yetirib, lakin Aqazaryan hələ də müqavimət göstərir. Onun fraksiyadan çıxarılması məsələsi noyabrın 29-da axşam "Mülki müqavilə"nin parlament fraksiyasının Paşinyanın iştirakı ilə keçirilən iclasında müzakirə olunub. "Hraparak" qəzeti yazır ki, iclasa O.Aqazaryan da qatılıb.

Paşinyanın sədrliyi ilə keçirilən iclas kadr dəyişikliklərinə həsr olunub. Qəzetin yazdığına görə, iclas zalında Aqazaryanı görən Paşinyan təəccüblənib, lakin birbaşa heç nə deməyib və çıxışı zamanı ona eyhamlar ünvanlamaqla kifayətlənib. Aqazaryan çıxış etməsə də, görüşün sonuna qədər iclasda iştirak edib.



Bildirilir ki, Paşinyan oktyabrın 15-də istintaq komitəsinin sabiq rəhbəri Argişti Karamyanla mübahisə etdikdən sonra Aqazaryanı mandatdan məhrum etmək qərarına gəlib. Ancaq Aqazaryan mandatını verməkdən imtina edir. Maraqlıdır ki, hakim partiyanın bəzi deputatları baş nazirin tələbinə müqavimət göstərən partiya yoldaşlarını gizli şəkildə dəstəkləyirlər. Bu isə hakimiyyət düşərgəsində ciddi fikir ayrılıqlarının olduğunun daha bir göstəricisidir.

Ölkənin daxili siyasi həyatı, hakimiyyət daxilindəki çəkişmələrlə bağlı "Ermənistanın səsi" qəzetində dərc edilmiş məqalə də maraq doğurur. Qeyd edilir ki, Paşinyanın növbəti seçkilərə hazırlığa başlaması artıq heç bir şübhə doğurmur. Şübhə doğuran yalnız bunun 2026-cı ildə keçiriləcək növbəti seçkilər, yoxsa gələn il baş tuta biləcək növbədənkənar seçkilər olacağıdır: "Söhbət təkcə bədnam təraşdan (Paşinyanın saqqalını təraş etməsi nəzərdə tutulur – S.H.) deyil, komandanın təmizlənməsi üçün açıq müraciətdən və hər kəsi, hətta ən etibarlı silahdaşı belə qurban verməyə hazır olmağından gedir. Komanda isə dərhal və çox xarakterik şəkildə – Ermənistanı işğal etmiş cinayətkar dəstənin "əxlaq formasına" tam uyğun olaraq cavab verdi. Silahdaşlarının Paşinyana sədaqət və onun hər göstəriş və şıltaqlığını yerinə yetirməyə hazır olduqları barədə açıq andiçmə "paradına" az adam diqqət yetirdi. Ən yüksək rütbəli məmurlar bu gün, seçkilərdən xeyli əvvəl öz əsas vəzifələrini həll etməyə çalışırlar: Nikolun cinahından düşməmək. Bunun üçün nə lazımdır? Düzdür, şəxsən öz sadiqliyinizi və Nikola sədaqətinizi sübut etmək! Nə ölkənin, nə dövlətin maraqları, nə də xidməti öhdəliklər əsas deyil. Yalnız və yalnız Paşinyana sadiqlik lazımdır. Çünki onlar çox gözəl bilirlər ki, gələcək seçki siyahısında olmağın yeganə təminatı budur. Çünki onlar çox gözəl başa düşürlər ki, bu siyahıdan kənarda qalmaq təkcə karyera nərdivanından yıxılmaq deyil, həm də gələcək firavan və qayğısız həyatdan məhrum olmaqdır".

Yazıda bildirilir ki, bu çərçivədə deputat O.Aqazaryan Paşinyanın göstərişlərini qeyd-şərtsiz qəbul etmirdi. Bunun nəticəsi olaraq Aqazaryan uzun müddət idi ki, sıxışdırılırdı. Nəhayət, Paşinyan deputatın parlamentdə istintaq komitəsinin sabiq rəhbəri ilə mübahisəsindən istifadə edərək onu mandatdan məhrum etmək prosesini başladıb. Ancaq qeyd etdiyimiz kimi, Aqazaryan da buna qarşı çıxır və asanlıqla təslim olmaq istəmir.

Siyasətçi və ictimai xadim Narek Malyan bu barədə bildirib ki, əgər O.Aqazaryan "Mülki müqavilə" fraksiyasını tərk edib deputat mandatını qoruyub saxlaya bilsə, hörmətə və təkrar olunmağa layiq fenomenə çevriləcək: "Ona münasibətdən asılı olmayaraq, "Mülki müqavilə" fraksiyasını tərk edən hər bir deputat, xüsusən indiki mərhələdə müxalifətin verdiyi minlərlə müsahibədən daha vacibdir. Bu fikir pafosdan uzaq və istənilən real müxalifətçi üçün rasionaldır".

"Joxovurd" qəzeti isə yazır ki, hakim partiyanın deputatları parlament seçkilərinə iki il qalmış artıq təşviqat kampaniyasına başlayıblar: "Hakim partiyadan olan deputatlar baş nazirdən geri qalmır və fəal şəkildə bölgələrə səfərlər edir, sakinlərlə görüşür, məktəblərə baş çəkir və orada görülən işlərlə tanış olurlar". Adının açıqlanmasını istəməyən deputatlardan biri bu qiymətləndirmələri təsdiqləyib. "Əlbəttə, deputatlar öz növbəsində, hökumət də öz növbəsində işlər görür. Hər bir addım xalqa hesabat təqdim etməyə və bu hesabatın qəbul olunmasına yönəlib. Bölgələrə səfərlər təşviqat kampaniyasının tərkib hissəsidir. Biz rayonlara səfər etməliyik ki, partiya dostlarımız, xalqımız bizi tanısın və hərəkətlərimizə qiymət versin" – deyə deputat bildirib.

O.Aqazaryan və A.Karamyanın iştirakı ilə parlamentdə baş vermiş qarşıdurmaya münasibət bildirən müxalifətçi deputat, "Respublika" partiyasının üzvü Tiqran Abramyan özünün "Facebook" səhifəsində yazıb: "Qanunverici orqandakı biabırçı "razborka" təkcə mövcud hakimiyyətin mahiyyətini və keyfiyyətcə iflasını deyil, həm də hakim qüvvə daxilindəki "gəmiriciliyi", himayədarlığın və siyasi korrupsiyanın qeyri-sağlam təzahürlərini göstərdi. Müzakirələrin belə aşağı səviyyədə keçirilməsinin əsas sponsoru və təminatçısı yalnız özünü və şəxsi maraqlarını güdən Nikol Paşinyan olub".

T.Abramyan qeyd edib ki, qarşıdurmanın baş veriyi gün parlamentdə daha iki etiraf bəyanatı səslənib: "İstintaq komitəsinin sədri hazırkı hakimiyyət daxilində "ədalətli seçim institutu"nun mövcudluğuna eyham vurdu. Mövcud hakimiyyəti qoruyub saxlamağın əsas təminatlarından biri də kompromat siyasətinin davam etdirilməsidir. İstintaq komitəsinin sədri bütün təfərrüatlardan, sxemlərdən xəbərdardır və onları ictimailəşdirməklə hədələyir".

Onun sözlərinə görə, ikinci etirafı hakim partiyadan olan deputat O.Aqazaryan edib və bu, bütün müxalifətçilərin və hüquq müdafiəçilərinin uzun illərdir danışdıqları ilə bağlıdır: "Hakimiyyət həbslərdən təzyiq vasitəsi kimi istifadə edir. Haqqında qondarma cinayət işi açılmış Ermənistan "Respublika" partiyasının sədr müavini Armen Aşotyandan tutmuş, müxalif əhval-ruhiyyəli vətəndaşlara qədər bir çox insan Aqazaryanın etirafının ağır nəticələrini öz üzərində hiss edir".

***Səxavət HƏMİD***
***XQ***

# Alternativ həmişə var

*Əgər Ermənistan regional əməkdaşlığa töhfə vermək istəyirsə...*

**Bu marşrut, sadəcə, Türkiyə ilə Naxçıvanı və bütövlükdə Azərbaycanı birləşdirəcək dəmir yolu olmayacaq. Qars–İğdır–Aralıq–Dilucu– Sədərək–Naxçıvan–Culfa dəmir yolu xətti Orta dəhlizin daha bir qolu kimi İran ərazisindən keçməklə beynəlxalq yük daşımalarını yerinə yetirəcək haba çevriləcək. Bu gün dəmir yolunun inşası davam etdirilir. Orta Dəhlizlə Şimal-Cənub marşrutunu əlaqələndirəcək yeni yol Azərbaycan və onun tərəfdaşları üçün tranzit imkanlarını da genişləndirəcək.**



Bəli, yeni tranzit marşrutu Zəngəzur dəhlizinə alternativ sayılmalıdır. Əgər Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinə əməl etsəydi, bu alternativə ehtiyac qalmazdı. Həmin sazişə imzasını qoyan Nikol Paşinyan boynuna götürdüyü öhdəlikləri yerinə yetirmir, sülh prosesinin prinsiplərinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən kommunikasiyaların bərpasından boyun qaçırır.

Nəzərə almaq lazımdır ki, Zəngəzur dəhlizi Mərkəzi Asiya və Avropanın inteqrasiyası və regionun inkişafı üçün açar rolunu oynayır. Dəhlizin işə düşməsindən özü də az qazanmayacaq Ermənistan məsələləri dondurmağa çalışır. 30 ildən çoxdur blokada şəraitində olan Naxçıvan bu gün də müəyyən çətinliklərlə üzləşir. İrəvanın məsələyə qeyri-obyektiv yanaşmasına paralel olaraq rəsmi Bakı göstərdi ki, onun öz öhdəliyini yerinə yetirməyə nə vaxtsa hazır olacağını və kommunikasiya marşrutlarını şaxələndirmək üçün yaranacaq fürsətdən istifadə edəcəyini gözləmək niyyətində deyil. Məsələnin sual doğuran digər tərəfi isə İrəvanın beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan dirənişinə qlobal güclər tərəfindən hələ də lazımi qiymətin verilməməsidir. Burada söhbət, ilk növbədə, Cənubi Qafqazda öz maraqlarını güdən kənar aktorlardan gedir.

2023-cü il oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında “Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirildi. Hazırda bu sahədə işlər sürətlə davam etdirilir. Bu o deməkdir ki, Azərbaycan qarşıya çıxan problemi özü həll edir və Ermənistanın məsələyə necə yanaşması artıq öz əhəmiyyətini itirib.

***

Məntiqə görə, Ermənistan regional əməkdaşlığa töhfə verməkdə və bundan faydalanmaqda özü maraqlı olmalıdır. Amma qərarların qəbulunda siyasi iradə kasadlığından əziyyət çəkən rəsmi İrəvana edilən kənar təsirləri də nəzərdən qaçırmaq olmaz. Belə böyük, transmilli layihələrə daha çox siyasi aspektdən yanaşılmanın məlum səbəbləri var. Sadəcə, bu zaman gecikən və uduzan Ermənistandır.

Bu məqamda Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Almaniyanın “Berliner Zeitung” qəzetinə müsahibəsində dediyi fikirləri yada salmağımız yerinə düşər: “Önəmli olan Ermənistanın həqiqətən də bu layihədə maraqlı olub-olmamasıdır. Xoşniyyətli istək olduqdan sonra texniki məsələlər yaradıcı təfəkkür vasitəsilə həll oluna bilər. Velosiped icad etməyə ehtiyac yoxdur. Ermənistandan keçən marşrut İrəvanın öhdəliyidir və onlar buna əməl etməlidirlər. Başqa sözlə desək, öhdəliyini yerinə yetirməlidir”. Beynəlxalq təcrübənin və humanitar prinsiplərin də Ermənistandan Naxçıvanı blokadada saxlamağı dayandırmağı tələb etdiyini bildirən Hikmət Hacıyev İrəvanın heç bir səy göstərmədiyini də qeyd edib.

Azərbaycan Türkiyədə, Türkiyə isə Azərbaycanda ən böyük sərmayədarlardan biri kimi çıxış edir. İki qardaş ölkənin birgə reallaşdırdığı Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP, Bakı–Tbilisi–Qars kimi enerji və nəqliyyat layihələrinin mühüm regional və qlobal əhəmiyyət daşıdığı hamı tərəfindən etiraf olunur. Şübhə yoxdur ki, Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan və Türkiyə bundan sonra da Avropanın enerji təhlükəsizliyinə töhfə verməkdə davam edəcəklər. İğdır–Naxçıvan təbii qaz boru kəmərinin çəkilməsi də iki qardaş ölkənin enerji gündəliyində duran aktual məsələlərdəndir. 2020-ci il fevralın 25-də “Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında Qars–İğdır–Aralıq–Dilucu–Sədərək–Naxçıvan–Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu” imzalanıb. Azərbaycan və Türkiyə hökumətləri layihənin iqtisadi və həm də siyasi əhəmiyyətini nəzərə alıb, bu dəmir yolunun tez bir zamanda işə düşməsini istəyirlər.

Bununla yanaşı, ötən il sentyabrın 25-də Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars–Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu”nu imzalayıblar.




Təkcə iki ölkənin deyil, həm də bölgənin inkişafına xidmət edən bu proseslərə Ermənistanda xəbis yanaşmalar daim müşahidə olunur. Erməni mediasında bu xarakterli açıqlama və şərhlərə tez-tez rast gəlinir. Özünü türkoloq kimi qələmə verən Varujan Geqamyan adlı birisinin “Facebook” səhifəsində yazdıqları hay cəmiyyətində müşahidə olunan məlum təmayülün bariz nümunəsi sayıla bilər. Hay türkoloq ərz edir: “Xəritəyə baxın. Ötən həftə Türkiyə parlamentində 2025-ci ilin büdcəsinin müzakirəsi zamanı nəqliyyat naziri Qars–Naxçıvan dəmir yolunu göstərib. Bu, Zəngəzur dəhlizinin əsası və davamıdır. Türkiyə Ermənistanı boğmaq üçün sürünən ilan kimi yaxınlaşıb onu əhatəyə almağa davam etdiyi halda, bu layihəni daxili gündəmimizdə yada salan yoxdur. Bununla paralel olaraq, Türkiyənin tələbi ilə indi Ermənistan orduda ixtisarlar aparmağa hazırlaşır. İqtidar qarşıdan gələn seçkilərdə hakimiyyətin qələbəsini təmin etmək üçün qeyri-qanuni addımlar atmağı planlayır”.

Geqamyan baş nazirlərinin Ərdoğanın yazılarını oxuduğunu, ondan sitatlar gətirdiyini, illər əvvəl Hayastanın təhlükəsizliyini təmin etmiş prezidentin isə “sorğu-suala çəkildiyini” yazır. Bu gün Ermənistan cəmiyyətində mövcud reallığı dolayısı ilə etiraf edən hay ekspertin Türkiyə–Azərbaycan qardaşlığına qısqanclığını bölüşənlər az deyil.

***

Reallığı qəbul etməkdə çətinlik çəkən, keçmişə xəstəcəsinə bağlı olan erməni cəmiyyəti, hər şeydən əvvəl, daxili problemlərinin həlli barədə düşünməli, zamanın onun əleyhinə işlədiyinin fərqinə varmalıdır. Dünyaya açıq Azərbaycan isə tərəqqi və əməkdaşlıq yolunda inamla addımlayır. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Zəngəzur dəhlizi və bunun tərkibinə daxil olan Qars–İğdır–Aralıq–Dilucu–Sədərək–Naxçıvan–Culfa dəmir yolu yalnız Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək məqsədi daşımır, həmçinin Avropa ilə Asiyanı qovuşduran beynəlxalq nəqliyyat habıdır.

Yeri gəlmişkən, **Türkiyənin Nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu “Bloomberg”ə açıqlamasında** Zəngəzur dəhlizinin Cənubi Qafqazda iqtisadi əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacağını vurğulayıb. Türkiyəli nazir qeyd edib ki, Zəngəzur dəhlizinin işlək olması ilə Orta dəhlizin dəmir yolu və avtomobil yükdaşıma qabiliyyəti artacaq. Onun sözlərinə görə, yeni dəhliz işə başlayanda Qafqazla sərhəddə yerləşən bölgələrin nəqliyyat və enerji sahəsində iqtisadi cəhətdən güclənməsi, xüsusilə, logistika sektoru üçün məşğulluğun artması planlaşdırılır. A.Uraloğlu Qars–Culfa dəmir yolu xəttinin Ermənistan sərhədinə qədər olan hissəsinin tikintisinin davam etdirildiyini, Horadizdən Naxçıvanın Ordubad rayonuna 166 kilometrlik yeni dəmir yolunun çəkiləcəyini bildirib.

Xəttin Ermənistana məxsus hissəsinin Zəngəzur bölgəsindən keçəcək 43 kilometrlik hissəsinin tikintisi ilə bağlı Azərbaycan və Rusiya arasında danışıqlar aparılacağını bildirən türkiyəli nazir bu zaman yol xətlərinin də paralel olaraq istifadəyə veriləcəyini vurğulayıb.

Nazir Qars-Naxçıvan dəmir yolu layihəsi çərçivəsində iki qardaş ölkə arasında yeni nəqliyyat əlaqəsinin təmin ediləcəyinə diqqət çəkərək bildirib ki, Ordubaddan Naxçıvanın şimalında yerləşən Vəlidağ stansiyasına qədər olan 158 kilometrlik xətt əsaslı şəkildə təmir olunacaq. Bundan əlavə, xətt Vəlidağdan Ermənistan sərhədinə qədər 14 kilometr uzadılacaq. Nəticədə Türkiyə ilə Azərbaycanı birləşdirən Dilucu sərhəd keçid məntəqəsi vasitəsilə Naxçıvana qoşulmaqla, dəhlizə çıxmaq mümkün olacaq.

**ARAYIŞ:** Qars-Culfa dəmir yolu 224 kilometr uzunluğunda və 5 stansiyadan ibarət olacaq. Saatda 160 kilometr sürət üçün nəzərdə tutulan yolun üzərində ümumi uzunluğu 638 metr olan 10 körpü, 18 kilometr uzunluğunda 465 suötürücü, 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Layihədə nəzərdə tutulan bütün işlərin 5 il müddətinə başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev cari il mayın 19-da Araz çayı üzərində inşa edilmiş hidroqovşaqların açılış mərasimində regiondan kənar ölkələrin bizim işlərimizə müdaxiləsinin qəbuledilməz olduğunu bildirib: “Əgər kimsə – buradan minlərlə kilometr uzaqlıqda yerləşən ölkələrin rəhbərləri bu bölgədə hər hansı bir nəticə əldə etmək istəyirlərsə, bizimlə danışsınlar. Yersiz və lazımsız müdaxilə bu günə qədər heç bir səmərə verməyib və verməyəcək. Hesab edirəm ki, Ermənistan səhv addım atmamalıdır. Regional məsələlər region ölkələrinin bilavasitə iştirakı və iradəsi ilə həll olunmalıdır. Ermənistan uzun illər ərzində buradan uzaqlarda yerləşən ölkələrin himayəsinə, dəstəyinə bel bağlamışdır. Nəticə nə oldu? Nəticə onlar üçün o qədər də ürəkaçan olmamışdır. Yəni, növbəti səhvi buraxmasın. Ümid edirəm ki, Ermənistan düzgün siyasət apararaq regional əməkdaşlığa ziyan yox, töhfə verəcəkdir”.

Kiçik və iqtisadi cəhətdən zəif və özünü təcrid etmiş Ermənistanın Zəngəzur dəhlizinin açılmasına necə yanaşmasından asılı olmayaraq, bu yol mütləq açılacaq. Çünki ortada bir ildə quru yolla Şərqdən Qərbə 840 milyard dollar dəyərində yüklərin ixracı, Çinin və həmin yüklərin çatdırılacağı Avropa İttifaqına üzv dövlətlərin maraqları var.

Türkiyə ilə Azərbaycan bu yolun inşasının başa çatdırılması və istismara verilməsi üçün kifayət qədər iqtisadi potensiala malikdir. Bunu rəsmi İrəvanla yanaşı, onun Qərbdəki tərəfdaşları, eləcə də hay türkoloqlar yaxşı bilirlər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qərb Gürcüstanı inadla xaosa sürükləyir

**Azərbaycanın qonşusu və strateji tərəfdaşı Gürcüstanda Qərbin dəstəklədiyi müxalifət və QHT qruplaşmaları aranı qarışdırmağa çalışırlar. Hadisələrin inkişafı onu göstərir ki, Qərb Tbilisidə də Kiyev “Maydan”ını reallaşdırmaq istəyir. Ancaq Baş nazir İrakli Kobaxidzenin dediyi kimi, “Maydan” ssenarisi Gürcüstanda təkrarlana bilməz, çünki ölkədə güclü institutlar və müdrik insanlar var.**

Gürcüstanın strateji əhəmiyyəti böyükdür, bu barədə çox danışılıb, yazılıb. Xüsusilə də region ölkələrinin iqtisadi müstəqilliklərinin formalaşmasında böyük rol oynayan strateji neft boru və qaz kəmərləri ərazisindən keçir. Gürcüstan həm də Qara dəniz sahilində yerləşir ki, bu da onun strateji əhəmiyyətini artırır. Lakin son zamanlar geosiyasi maraqlarını təmin etməyə çalışan Qərbin Avrasiyanın bir çox mühüm regionlarında gərginlik ocaqları yaratmasına çalışması günümüzün reallığına çevrilib. Rusiya – Ukrayna müharibəsinin başlanmasından sonra Rusiya ilə sərhəd ölkələrini də fəal şəkildə Qərb maraqlarını dəstəkləməyə çalışan “Qoca qitə” qonşumuzda da rəngli inqilab qığılcımı yaratmağa çalışır. Bir neçə gündür ki, Tbilisinin qanlı xaos və zorakılıq yuvasına çevirməyə cəhd edilməsi də məhz bunu göstərir. Lakin ölkə hakimiyyəti bütün cəhdlərin qarşısını qətiyyətlə alır.



Gürcüstanın Avropa İttifaqına daxil olması ilə bağlı Brüssellə danışıqları ən azı 2028-ci ilə qədər dayandırmaq niyyətini bildirməsindən sonra iğtişaşçılar Tbilisi küçələrini döyüş meydanına döndərməyə çalışırlar. Bundan əlavə, hakimiyyət Avropa qrantlarından da imtina etdi, bu da mühüm rol oynadı. Hazırda bəzi mənbələrə görə, ölkədə 30 minə yaxın müxtəlif QHT fəaliyyət göstərir. Əsasən Vaşinqton və Brüssel tərəfindən maliyyələşdirilən bu təşkilatlar iğtişaşların özəyini təşkil edirlər. Bu strukturların fəalları yeni rəngli inqilabın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Vəziyyəti gərginləşdirən də məhz onların olduğu bildirilir.

Tbilisi küçələrində yaşananlar müşahidəçilərə tanış olan bir sıra xüsusiyyətləri üzə çıxardı. Dövlət binalarının qarşısına toplaşan iştişaşçılar dərhal polis qüvvələrini güc tətbiqinə təhrik etməyə başlayıblar. Qərb kuratorlarının tövsiyələrinə ciddi şəkildə uyğun olaraq, iğtişaşçılar şəhər məkanının bir hissəsini tutmağa cəhd ediblər. Bir neçə dəqiqə ərzində Tbilisinin küçələrində barrikadalar peyda olub və onları, demək olar ki, dərhal yandırıblar. İğtişaşçılar əllərində bayraqlarla yanan zibil yeşiklərinin yanında peyda olublar. Sonra polisə daş və butulka atıblar.

Zorakılığın artması təhlükəsizlik qüvvələrini öz tərəfinə çəkmək cəhdləri ilə müşayiət olunub. Bu da uğurla yekunlaşmayıb. Polis yanğını söndürmək üçün su şırnaqlarından istifadə etməyə başlayıb. Şiddətli etiraz təəssüratı yaratmağa müvəffəq olmayan kütləni dağıtmaq üçün polis vəzifəsini yerinə yetirməyə başlayıb və ictimai asayişi pozmağa cəhd göstərənlərə qarşı tələb olunan addımları atıb. Daxili İşlər Nazirliyi vətəndaşları hüquq-mühafizə orqanları əməkdaşlarının göstəriş və tələblərinə tabe olmağa çağırıb, əks halda barələrində qanuni tədbirlər görüləcəyini bildirib.

Rəsmi Tbilisi hadisələrlə bağlı mövqeyini bildirib. Baş nazir İrakli Kobaxidze vurğulayıb ki, radikallar və onların xarici himayədarları hər zaman ölkədə iğtişaşlar törətmək və Gürcüstanı Ukraynaya çevirmək üçün səbəblər tapmağa çalışırlar: “Onlar hələ də dərk etməyiblər ki, 2013-cü ildəki Ukraynadan fərqli olaraq, Gürcüstan güclü təsisatları olan, ən əsası isə gücü sarsılmayacaq təcrübəli və müdrik xalqı olan müstəqil dövlətdir”. Baş nazir bir daha xatırladıb ki, “Maydan” ssenarisi Gürcüstanda reallaşa bilməyəcək: “Gürcüstan dövlətdir və dövlət də təbii ki, buna imkan verməyəcək”. Bununla yanaşı, cənab Kobaxidze Gürcüstanın konstitusiya quruluşuna hücumun qarşısını aldığına və ölkənin suverenliyi və müstəqilliyinin keşiyində dayandığına görə Daxili işlər naziri Vaxtanq Qomelauriyə və hər bir polis əməkdaşına təşəkkür edib.

Tbilisi hadisələrində Aİ nümayəndəsinin özünü canişin kimi aparması Gürcüstanda hiddətlə qarşılanıb. Qurumu təmsil edən avropalı səfir bütün diplomatik etiketi pozaraq Gürcüstanın daxili işlərinə qarışır, əhalini iğtişaşlara sürükləyən çağırışlara yol verib. Bu da, əlbəttə ki, rəsmi Tbilisinin haqlı reaksiyasına səbəb olub. Baş nazir İrakli Kobaxidze xarici aktorları Gürcüstan cəmiyyətində anti-Avropa əhval-ruhiyyəsini gücləndirən zorakı və əsassız etirazları təşviq etməyi dayandırmağa çağırıb. “Narahatedicidir ki, biz indiyədək xarici aktorlardan dinc şəkildə etiraz bildirmək üçün bir çağırış eşitməmişik. Üstəlik, bəzi xarici aktorlar, hətta zorakı mitinqləri dinc etirazlar adlandırırlar. Bununla onlar nəinki zorakılığı qınamırlar və ya onlardan uzaqlaşmırlar, əksinə, onu təşviq edirlər”.

Eyni zamanda, Gürcüstan hökumət başçısının sözlərinə görə, xarici aktorlar Daxili İşlər Nazirliyini zorakılığa reaksiya verməməyə çağırırlar ki, bu da onların milli “Maydan”ı və Gürcüstanın ukraynalaşdırılmasını təbliğ etmək niyyətini tamamilə aşkara çıxarır: “Biz xarici aktorları Gürcüstan cəmiyyətində anti-Avropa əhval-ruhiyyəsinə səbəb olan zorakı və əsassız etirazları təşviq etməyi dayandırmağa çağırırıq. Sonda bir daha hər kəsə xatırlatmaq istəyirəm ki, Gürcüstan güclü institutlara malik, ardıcıl olaraq Avropaya inteqrasiya yolu ilə gedən dövlətdir. Gürcüstanı müharibəyə sürükləmək üçün davamlı cəhdlərə baxmayaraq, biz ölkəmizi ukraynalaşmadan xilas etdik və sülhü qoruduq”. Cənab Kobaxidze, həmçinin diqqətə çatdırıb ki, xaricdən maliyyələşdirilən iki inqilab cəhdinə baxmayaraq, ölkədə sabitlik qoruyub saxlanıldı. O, habelə süni maneələrə baxmayaraq, Gürcüstanın Avropa İttifaqına üzvlüyə namizəd statusu aldığını da xatırladıb.

Gürcüstanın yeni rəngli inqilabı zəif hazırlanmış görünür və açıq şəkildə kütləvi dəstəkdən məhrumdur. Təəssüf doğuran fakt budur ki, iğtişaşçılar ölkənin qarşısında dayanmış strateji məsələləri deyil, Qərbin siyasi gündəliyini yerinə yetirməyə çalışır. Halbuki Gürcüstanın qarşısında itirilmiş torpaqların geri qaytarılması kimi strateji vəzifə dayanıb. Ancaq bu fakt Tbilisini qan gölünə döndərməyə çalışan radikal müxalifət nümayəndələrini maraqlandırmır. Bu ünsürlərin öz gündəliyi var – o da nəyin bahasına olursa olsun, hökuməti devirmək və hakimiyyətə Qərbin əmrlərini yerinə yetirən qüvvələri gətirmək.

Əlbəttə, baş verən hadisələr Gürcüstanın daxili işidir və kənar qüvvələrin və ölkələrin bu prosesə müdaxilə etmələri qəbuledilməzdir. Heç kim demokratik əsaslarla keçirilmiş seçkilərin nəticələrinə şübhə ilə yanaşa bilməz. Müdrik xalq öz seçimini edib, sakitliyə və qonşuları ilə dinc şəkildə yaşamağı üstün tutan siyasi qüvvəni dəstəkləyib. Bu strateji xəttə qarşı çıxanlar yalnız dinc inkişafı və güclü dövlət quruculuğunu istəməyənlərdir. Qərb Ukrayna xalqını müharibəyə sürüklədiyi kimi, Gürcüstan üçün də eyni ssenariləri cızır. Barrikadalar qurmağa çalışanlar milli problemləri artıran planlara baş qoşmamalı və heç bir xarici qüvvənin əlində alət olmamalıdır.

***S.ELAY***
***XQ***

1 dekabr Laçın rayonunun erməni işğalından azad olunduğu gündür

# Can sənə qurban, Laçın!



(əvvəli 1-ci səhifədə)

Qürur hissi ilə təsdiqləyirik ki, 44 günlük Zəfər yürüşü zamanı digər ərazilərimiz kimi, Laçının Güləbird, Səfiyan və Türklər kəndlərini də Azərbaycan Silahlı Qüvvələri işğaldan azad etmişdilər, yəni müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə igid oğullarımız Laçının alınmasının təməlini qoymuşdular. Hərbi əməliyyatlar dayanan vaxtdan sonra müəyyən edilmiş 5 kilometrlik Laçın dəhlizinin biryolluq bağlanması, rayon mərkəzinin, Zabux və Sus kəndlərinin də Azərbaycanın nəzarətinə qaytarılması, ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri ilə suverenliyimizin tam bərpa olunması böyük hərbi və diplomatik qələbəmizdir. Artıq bir müddətdir ki, burada da "Böyük Qayıdış" reallaşmaqdadır.

Ermənistan silahlı qüvvələri Laçını 1992-ci il mayın 18-də ələ keçirmişdilər. İşğal dövründə rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən çox hərbi və mülki şəxs həlak olub və ya itkin düşüb. Burada təbiətə divan tutan işğalçılar 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsini, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisəni, 5 musiqi məktəbini və digər infrastruktur obyektləri talayaraq məhv ediblər. Həmçinin 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə uğrayıb.

İşğaldan azad olunmuş Laçına həyat yenidən qayıdıb, burada sürətli bərpa-quruculuq işləri aparılır. Prezident İlham Əliyev Laçın rayonuna səfərləri zamanı Güləbird Su Elektrik Stansiyasının, "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının və digər infrastruktur obyektlərinin açılışını edib, Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər–Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsinin və Şəlvə kəndinin, Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub.

Prezident İlham Əliyev mayın 28-də Laçına növbəti səfəri zamanı aparılan quruculuq işlərindən danışaraq deyib: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Laçına ötən səfərimizdə gördüyümüz kimi, burada həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilir. Çoxmənzilli binaların tikilməsi də nəzərdə tutulur. Şəhərdə xəstəxana, Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq.

Doğma sakinlərinin nəfəsi ilə qızınan evlərdə, idarələrdə, məktəbdə olarkən söhbət etdiyimiz hər kəsin gözündən xüsusi bir qürur və fəxarət duyğusu boylanırdı. Rayon sakini Gündüz Təhməzov və anası İpək xanım, təsərrüfatını qaydaya salan Natiq Abbasov və qonşusu – ağsaqqal Zülfüqar Babayev 31 illik ayrılığın sonundakı vüsaldan xoşbəxt olduqlarını məmnunluqla dilə gətirdilər. Dedilər ki, yurda iməkləyib dönməyə də, yıxılmış evinin yerində çadırda yaşamağa da razı idilər. Amma bura gəlib gözəl evlərlə təmin olunmalarının sevincinə qərq olublar. Hər biri də fikrini bu şəkildə tamamladı: "Prezident İlham Əliyevə və onun rəşadətli Ordusuna ailəlikcə minnətdarıq. Bizə bu sevinci yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq".

Bu günlərdə Laçındakı "Hoçazfilm"in direktoru, istedadlı rejissor Amil Amal, gözəl xanəndə, Əməkdar artist Ehtiram Hüseynov dağlar diyarında olmalarından vüqarla söhbət açdılar. Bizi yenidən Laçına qonaq çağırdılar. "Sağlıq olsun, gələrik", – dedik.

Artıq Çaykənarı bulvar Laçın sakinlərinin və qonaqların sevimli istirahət məkanlarından birinə çevrilib. Həkəri çayı üzərində göl yaradılıb. Burada asma körpü inşa edilib, ətrafda yaşıllıqlar salınıb, kotteclər tikilib. Göldə çimərlik də fəaliyyət göstərəcək. Rayon sakinlərinin və qonaqların rahat istirahət etməsi üçün çimərliyin ətrafında əyləncə mərkəzinin yaradılması nəzərdə tutulub.

Ötən il avqustun 25-26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonuna səfər zamanı Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər. Onlar "AzərEnerji" ASC-nin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışına qatılıb, Laçın Beynəlxalq Hava Limanında aparılan tikintinin gedişi ilə tanış olublar. Səfər zamanı Laçında mehmanxana kompleksinin təməli qoyulub. Dövlət başçısı və xanımı Laçının sənaye zonasında mebel fabrikinin açılışında da iştirak ediblər. Bundan başqa, rayonda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, "Həkəri Balıq Təsərrüfatı"nın açılışı olub, 2 nömrəli tam orta məktəb əsaslı təmirdən sonra istifadəyə verilib. Hazırda Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində işlər uğurla davam etdirilir.



Yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur. Şəhərdə yaradılan Aqro-Sənaye Parkında ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək.

Laçın artıq minə qədər ailəyə qucaq açıb, 3 mindən artıq laçınlı doğma diyarda bəxtəvər günlərini yaşayır. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, Laçın şəhərinin işğaldan azad edildiyi 26 avqust tarixi Laçın şəhəri günü kimi qeyd olunur. Bu bayramı laçınlılar hər dəfə hədsiz sevinc hissi ilə qeyd edirlər.

...Noyabrın 8-də Laçında Zəfər Günü böyük ehtişamla qeyd olundu. Rayonda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədovun təbriklərindən sonra çıxış edənlər bu qüruru onlara yaşadan dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər, şəhidlərimizə Allahdan rəhmət dilədilər. İkinci Qarabağ müharibəsi qazisi, şəhid Ədalət Məmmədov adına Zabux kənd orta məktəbinin hərbi rəhbəri Taleh İsgəndərli isə 44 günlük Vətən müharibəsində müəyyən payının olmasından şadlığını bildirdi. "Lacinema" kino mərkəzində bədii hissə ilə davam edən konsertin səsi dağlarda əks-səda saldı. Mahnı, rəqs və şeirlərdən sonra əsir alınanda belə üçrəngli Azərbaycan bayrağını yerə qoymayan Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş "Oğul" sənədli filmi nümayiş etdirildi.

Bir vaxt yazıçı Tağı Şahbazinin təklifi ilə rayonun üzərindəki dağa istinadla "Laçın" adlandırılan gözəl diyar artıq 4 ildir ki, şad-şalayın günlərini yaşayır. Səmasında laçınlar arın-arxayın cövlan eləyir. Bu yurdun vətənsevər övladları hamılıqla doğma od-ocağa can atırlar. Şair dostumuz Şərif Ağayar demişkən:

***Sözümün əvvəli, sözümün sonu***
***Məskənim, beşiyim, anam, ay Laçın!***
***İstərəm eşqinlə Xan Kərəm kimi***
***Alışam, ay Laçın, yanam, ay Laçın!..***

***Əli NƏCƏFXANLI***
***XQ***











# Ayın bəxtinə bir bax...

## *Noyabrdakı çoxsaylı əlamətdar günlər sırasına COP29 da yazıldı*

**Nədənsə bu məzmunlu yazıları qələmə alanda həmişə gözəl şairimiz Vaqif Səmədoğlunun “Günün bəxti” şeiri yadıma düşür: “Günün bəxtinə bir bax – düz iyirmi əsr ilin, ayın adi günlərindən biri olasan, sonra isə tarixdə 45-ci ilin doqquz mayı kimi qalasan”. Yəni şairin fikrincə, günün də bəxti olur. Əgər elədirsə, deməli, ayın da bəxti olur. Elə olmasaydı, müasir tariximizin noyabr səhifələrinə onlarca əlamətdar gün yazılmazdı. Noyabr təkcə Konstitusiya, Dövlət Bayrağı, YAP-ın yaradılması, Milli dirçəliş və Zəfər günləri ilə yekunlaşmır. O sıraya builki noyabrda möhtəşəm COP29 uğuru da yazıldı.**

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.




Əslində, bu sətirləri qələmə almaq istəyi məndə bu il noyabrın 5-də Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim ediləndə yaranmışdı. O zaman yadıma düşmüşdü ki, müasir Azərbaycanın əlamətdar günlərinin də, liderimizin, xalqımızın və dövlətimizin uğurlarının əksəri də noyabr ayının qismətinə düşüb.

Qərəz, indi həmin tarixi faktların bir neçəsini yada salaq.

### Hələ ötən əsrin əvvəllərində...

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası (indiki Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin “Azneft” İstehsalat Birliyinin binası) üzərində qaldırılıb.

### Xalq Cümhuriyyətinin yadigarı

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağmız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsdiq edilib.

Sonralar ümummilli lider bu barədə deyirdi: “Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı”.

### Dövlət Bayrağı Günü

Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u ( diqqət yetirin, noyabr iki dəfə təkrar olunur) ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı meydanının təntənəli açılış mərasimində çıxış edən dövlət başçımız demişdi ki, bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Cənab Prezidentin həmin günü necə yaxınlaşdırdığı da, ona necə nail olduğu da bütün dünyanın gözü qabağındadır.

### Müstəqil dövlətimizin ilk Əsas Qanunu

Noyabrın 12-si Azərbaycan Respublikasının Konstitusiya Günüdür. Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə Heydər Əliyevin həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. Heydər Əliyev bu barədə danışarkən bildirmişdi: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

Hazırkı Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmişdir. Bu Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra ilk Konstitusiyası idi. Əsas Qanunumuz həmin il noyabrın 27-də qüvvəyə minmişdir.

### Yeni uğurlara doğru yeni parlamentlə

Biz müstəqilliyin ilk illərində dövləti və xalqı köhnə – Sovet dönəmindən qalmış qanunlarla idarə etmək məcburiyyətində idik. Ona görə də bəzi dövlətlər bizimlə əməkdaşlıq zamanı tərəddüd edirdilər. Ulu öndər Heydər Əliyev həmin tərəddüdlərə 1995-ci il noyabrın 12-də keçirilən müstəqillik dövrümüzün ilk parlament seçkiləri ilə son qoydu.

Xatırladaq ki, ilk parlament seçkimizin seçici siyahılarına daxil edilmiş 4.132.600 nəfər vətəndaşdan 3.556.277-si, başqa sözlə 86,05 faizi seçkilərdə iştirak etmişdir. Səsvermənin tam ədalətli şəkildə başa çatdırılması məqsədilə bir neçə addım atılmalı olmuşdur. Belə ki, noyabrın 26-da birmandatlı 20 seçki dairəsində təkrar səsvermə, 1996-cı il fevralın 4-də 15 seçki dalrəsində təkrar seçkilər və nəhayət, fevralın 18-də 1 seçki dairəsində təkrar səsvermə ilə parlament seçkiləri başa çatdırılmışdı. Seçkilər birpalatalı parlamentə majoritar və proporsional seçki sistemləri üzrə keçirilirdi. Majoritar seçki sistemi ilə 100, proporsional seçki sistemi üzrə isə 25 deputat seçilməli idi. Məntəqə seçki komissiyalarının üzvlərinin 13.851 nəfəri, yaxud 30 faizi siyasi partiyaların, 9.234 nəfəri və ya 20 faizi deputatlığa müstəqil namizədlərin nümayəndələri idi.

### “Şuşa, sən azadsan!”

2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında xalqımıza müraciət edərək böyük sevinc hissi ilə ruhumuzun özü, varlığımızın nüvəsi olan Şuşamızın dünyanın ən mənfur təcavüzkarı olan terrorçu Ermənistan ordusunun işğalından azad olunması müjdəsini verdi: “Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!

Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Həmin tarixi fakt sübut etdi ki, xalqımız öz liderinin rəhbərliyi ilə yeni tarix yazır, yeni reallıqlar diktə edir : “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!” deyən ulu öndər Heydər Əliyevin həmin arzusunu cənab Prezident İlham Əliyev “Əziz Şuşa, sən azadsan!” – deyərək, hər birimizə sevinc bəxş etdi.

### Zəfər Günü

Həmin gün haqqında olan rəsmi məlumatlarda oxuyuruq ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.

44 gün çəkən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olmuşdur.

### Düşmənin ağ bayrağı və təslim aktı

Azərbaycan Ordusunun 44 günlük İkinci Qarabağ müharibəsindəki dünyanı heyrətləndirən qələbəsi işğalçı ölkəni kapitulyasiya sənədinə imza atmağa məcbur etdi. Bu sənədi imzalayan üç dövlətdən birinin paytaxtı – Moskva döyüşlər gedən ərazidən xeyli uzaqda olduğuna, yəni saat fərqinə görə Azərbaycanın Zəfəri Günü həm noyabrın 9-na, həm də 10-na təsadüf edir.

Müasir tarixə Qarabağ atəşkəs bəyanatı kimi düşən (rəsmi adı isə Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı olan) üçtərəfli sənəd Ermənistanın İkinci Qarabağ müharibəsinin gedişində təslim olmasının ardınca imzalanmışdır. Bəyanatın məzmunu işğal altındakı bölgələrin Azərbaycana qaytarılması, münaqişə tərəfləri arasında kommunikasiyaların açılması, Rusiya sülhməramlılarının Dağlıq Qarabağda yerləşdirilməsi və onlara nəzarət mexanizmi olaraq Rusiya – Türkiyə Birgə Monitorinq Mərkəzinin qurulması kimi məqamları ehtiva etməklə yanaşı, münaqişənin həllinə dair digər məsələləri əhatə edir.

### COP29 – müstəqillik dövrümüzün möhtəşəm uğuru

Sadaladığımız bu faktların hamısı bizim üçün dəyərlidir. Ancaq bu il noyabrın 11-dən 23-dək Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – (COP29) həmin əlamətdar günlərimizi qat-qat zənginləşdirdi.

BMT rəsmilərinin fikrincə, Bakı sessiyasında böyük uğurlara imza atıldığına görə əvvəlki anoloji tədbirlərdən çox fərqləndi: “Ona görə də Bakının təcrübəsi sonrakı sesiyalarda da həımkarlarımızın köməyinə çata bilər”. Həmin beynəlxalq tədbirin yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi.

Rəsmi Bakı noyabrın 11-də start götürən və qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusi ilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etmişdi. Azərbaycan genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun göstəricisidir.

Nəticədə, Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olunub, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirilib, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırılıb, Bakı Adaptasiya Yol Xəritəsi yaradılıb, tərəflər iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsinə çatıblar. Bundan başqa, COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edilib. Bütün bunlar isə onu göstərir ki, COP29 məqsədinə çatıb, Azərbaycan gələcək COP-ların da uğurlu olması üçün müsbət presedent yaradıb.

... Bu faktlar müstəqilik tariximizin Noyabr salnamələrindəki “noyabr inciləri”nin bir hissəsidir. Ümidvarıq ki, növbəti illərin noyabrları da tarixi faktlar və əlamətdar günlərlə zəngin olacaqdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

REPLİKA

# KTMT can üstədir

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qazaxıstan paytaxtında keçirilən sammitində bu hərbi-siyasi blokun tam faydasızlığı bir daha etiraf olundu. Onsuz da üzvlər bu təşkilatdan çoxdan əhəmiyyətli bir şey gözləmirdilər. Amma qurumun budəfəki sammiti özünün unikallığı ilə yadda qalacaq.**



Astanada keçirilən sammitində KTMT-nin nə çox, nə az, NATO-ya alternativ olduğu barədə fikirlər səslənəndə bu blokun səmərəsizliyi və faydasızlığı ortaya qoyulmuş oldu. Kənardan baxanda görünən odur ki, Mərkəzi Asiyada təhlükəsizliyin əsas təminatçısı kimi KTMT nə iş görür? Xeyli müddətdir üzvlərindən birinin – Ermənistanın toplantılarına qatılmadığı bu qurumun əvvəlki coşqusu, qırımı niyə yoxa çıxıb? Məclisin keçirildiyi zalda buna bənzər xeyli cavabsız suallar uçuşurdu.

KTMT-nin real fəaliyyət imkanları tükəndiyindənmi, yoxsa müzakirə olunmağa mövzu qıtlığındanmı Rusiyanın Ali Baş Komandanının özünün yeni silahı – “Oreşnik”lə öyünməsi, bu möcüzə silahı Kremlin təbliğatında “postamentə” çıxarması tamaşaçıda qəribə assosiasiyalar doğururdu. Blokun digər üzvləri onu nəzakətlə dinlədilər. Təşkilatın baş katibi İmanqali Tasmaqambetovun dediyi kimi, “KTMT Rusiyanın “Oreşnik”dən istifadə təcrübəsini, habelə “onu sınaqdan çıxarmağa məcbur edən” beynəlxalq vəziyyəti mütləq öyrənməlidir. Kremlin qəzəbli bəyanatlarına bundan parlaq cavab tapmaq çətin idi.

İntəhası, Moskva özü sammitdə hökm sürən əhval-ruhiyyəni anladı. Jurnalistlərdən biri Vladimir Putindən KTMT nizamnaməsinə uyğun olaraq “xarici təcavüzü dəf etmək” üçün Rusiyanın köməyə ehtiyacın olub-olmadığı barədə soruşanda, o, qısa cavab verdi: “Bu, qeyri-realdır”. Bu cavabla Rusiya lideri özü KTMT-nin mövcud funksionallığı mövzusuna nöqtə qoymuş oldu.

Burada məsələnin maraq doğuran digər tərəfi ondan ibarətdir ki, KTMT hərbi-siyasi üst strukturdur. Yəni, sadəcə, boşluq üzərində dayanan bir üst quruluşdur. Bu boşluq özünü Moskva ilə KTMT-nin Mərkəzi Asiya üzvləri arasında xarici təhlükələrdən qorunmağı tələb edən birgə layihələrin hər gün azalmasında göstərir. Yəni, hərbi-siyasi blokun kimləri nələrdən qoruyacağı sualı havadan asılı qalır.

Həmkarlarımızdan biri müdafiə etməyə bir şeyi olmayan KTMT-ni qocalıb əldən düşmüş, boynundakı zəncirini arxasınca güclə dartan köpəyə bənzədib. Bu sözə əlavəmiz o ola bilər ki, illərlə keşiyini çəkmiş həmin köpəyi sahibi yalnız ürəyiyumşaqlığına görə həyatinin bir küncündə saxlayır. Veteran gözətçini – küçəyə qovmağı vicdanı yol vermir, onu öz əcəlinin ixtiyarına buraxır.

Qoy ömrünü yaşasın, çox vaxt qalmayıb. Qoy bu, bir müddət Moskvanın postsovet məkanındakı siyasətinin bir vaxtlar gördüyü daha yaxşı əyyamların simvolu kimi “xidmət etsin”.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qlobal Mətbuat Mərkəzinin BAMF-a əməkdaşlıq təklifi

**Cenevrə Qlobal Mətbuat Mərkəzi Beynəlxalq Avrasiya Mətbuat Fondunun media azadlığı, münaqişələrin həlli, təhsil və vətəndaş cəmiyyətinin gücləndirilməsi sahələrindəki fəaliyyətini yüksək qiymətləndirib.**




Bu barədə qurumun icraçı köməkçisi Azzam Hassan BAMF Prezidenti Umud Mirzəyevə ünvanladığı məktubda söz açıb. O təmsil etdiyi təşkilatın tarixi, missiyası haqqında ətraflı məlumat verərək BAMF-a CQMM-nin adından jurnalist təhlükəsizliyi sahəsində əməkdaşlıq təklif edib. CQMM rəsmisi birgə platforma yaradılmasının beynəlxalq səviyyədə jurnalist təhlükəsizliyini təmin etmək və media azadlığını təşviq etməkdə önəmli rol oynaya biləcəyini xüsusi vurğulayıb.

A.Hassan onu da bildirib ki, bu təşəbbüs insan hüquqları müdafiəçiləri, media qurumları və beynəlxalq təşkilatlar arasında yeni bir əməkdaşlıq modelinin yaradılmasına imkan verəcək. Birgə əməkdaşlıqda jurnalistlərin müdafiəsi sahəsində təcrübə mübadiləsi və beynəlxalq standartların tətbiqi üçün geniş imkanlar yaradılması da nəzərdə tutulur.

Xatırladaq ki, Qlobal Mətbuat Mərkəzi beynəlxalq jurnalistlər tərəfindən təsis edilmiş müstəqil qurumdur. Mərkəzin missiyası jurnalistlərin hüquqlarını qorumaq və media azadlığına dəstək olmaqdır.

***T.RÜSTƏMLİ***
***XQ***

# Nüvə fizikasına azərbaycanlı alimin töhfəsi

**“Bərk cisimli fotoelektronik gücləndiricilərin fizikası”. Fizika elmləri doktoru, nüvə tədqiqatçısı Zirəddin Sadıqovun Rusiyanın Dubna şəhərində nəşr olunan növbəti kitabı belə adlanır. Monoqrafiya müəllifin nüvə tədqiqatları sahəsində elmi fəaliyyətinin 40 illiyinə həsr olunub.**




Xatırladaq ki, Zirəddin Yaqub oğlu Sadıqov Tovuz rayonunun Alakol kəndində doğulub, Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirib, hazırda Dubnadakı Birləşmiş Nüvə Araşdırma İnstitutunda çalışır.

***Akif ƏHMƏDGİL***

# Şərqdən Qərbə əsrin yolu




(əvvəli 1-ci səhifədə)

Belə ki, dövlət başçısının rəhbərliyi ilə "Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006–2015-ci illər) Dövlət Proqramı", "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı", "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair Dövlət Proqramı (2006–2015-ci illər)", "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010–2014-cü illərdə inkişafına dair Dövlət Proqramı" və s. müxtəlif istiqamətləri əhatə edən çoxsaylı sədələr uğurla icra olunub.

Azərbaycanın nəqliyyat dəhlizlərində rolunun artırılması baxımından 2023-cü il noyabrın 23-də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı" da mühüm önəm daşıyır.

Dünya Bankının hesabatında 2030-cu ilə qədər Orta Dəhliz boyunca daşımaların həcminin 2021-ci illə müqayisədə 3 dəfə artacağı və yüklərin daşıma müddətinin 2 dəfə azalacağı proqnozlaşdırılır. Eyni zamanda investisiya və əməliyyat təkmilləşdirmələrinin düzgün kombinasiyası vasitəsilə bu dəhlizin transkontinental ticarətin iqtisadi və siyasi davamlılığına əhəmiyyətli töhfə verə biləcəyi bildirilir. Bundan başqa, adıçəkilən layihə dəniz limanlarına çıxış vasitəsilə Çinə, Avropaya və dünyanın digər regionlarına etibarlı marşrutu gerçəkləşdirməklə Mərkəzi Asiya və Cənubi Qafqazın potensialının inkişafını şərtləndirir.

Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən Orta Dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

Yeri gəlmişkən, sözügedən dəhlizlə bağlı bir məqamı da qeyd etmək istərdik. Əvvəlcə onu xatırladaq ki, bu günlərdə "Azərbaycan Dəmir Yolları" QSC-də Çinin Sian Beynəlxalq Limanının nümayəndə heyəti ilə keçirilən görüşdə Azərbaycanla Çin arasında bu marşrutla yükdaşımalar sahəsində əməkdaşlığın inkişaf etdiyini, bunun bariz nümunəsi kimi ilk dəfə olaraq ixrac yüklərinin Bakıdan dəmiryol nəqliyyatı ilə Çinə yola salındığı bildirilib.

Qeyd olunub ki, bu tarixi hadisə ilə iki ölkənin iqtisadi və nəqliyyat əlaqələri yeni mərhələyə qədəm qoyub və beləliklə, həm Şərqdən Qərbə, həm də əks istiqamətə




yükdaşımaların həyata keçirilməsi Orta Dəhlizin səmərəliliyini daha da artırır. "Azərbaycan Dəmir Yolları" Çinlə əməkdaşlığı "Bir kəmər, bir yol" təşəbbüsü və Avrasiya Nəqliyyat Marşrutu çərçivəsində də intensiv inkişaf etdirməyə maraq göstərir.

"Azərbaycan Dəmir Yolları" ölkəmizin beynəlxalq nəqliyyat-logistika qovşağına çevrilməsi və respublika ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə yükdaşımaların artırılması məqsədilə bir sıra önəmli layihələr həyata keçirir. Bakı–Tbilisi–Qars dəmiryol xəttinin genişləndirilməsi və yük ötürücülük qabiliyyətinin ildə 5 milyon tonadək artırılması Şərq- Qərb istiqamətində yük axınının sürətləndirilməsinə imkan verir.

Qeyd edək ki, 2024-cü ilin əvvəlindən Çin Xalq Respublikasından Azərbaycan istiqamətinə 280 konteyner blok-qatarı yola salınıb. Bu ilin sonuna kimi Çindən müvafiq marşrut üzrə 300-dən çox konteyner blok-qatarının Azərbaycana qəbul edilməsi nəzərdə tutulub. 2025-ci il üçün blok-qatar sayının 3 dəfədən çox artırılaraq 1000-ə çatdırılması planlaşdırılıb.

Azərbaycan Orta Dəhlizin inkişafı istiqamətində indiyədək dəniz, dəmir, avtomobil yolları, hava nəqliyyatı ilə bağlı genişmiqyaslı layihələr həyata keçirib. Bu isə Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyənin sözügedən marşrutun potensialının tam hərəkətə gətirilməsi məqsədilə 2022-ci ildə imzalanan və 2022–2027-ci illəri əhatə edən Yol Xəritəsinə, eləcə də özünün müəyyənləşdirdiyi uzunmüddətli strategiyaya sadiqliyinin ifadəsi olaraq respublikamızın nəqliyyat və logistika dəhlizinə çevrilməsi yolunda atdığı inamlı addımların təsdiqidir.

Qeyd edək ki, Asiya ilə Avropanı birləşdirən Orta Dəhliz ideyası dünyada baş verən gərgin geosiyasi proseslər fonunda irəli sürülüb. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə bu layihə həyata vəsiqə alıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub.

Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Orta Dəhliz təkcə Azərbaycanın deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsidir. Onun iqtisadi baxımdan səmərəli olması ilə yanaşı, siyasi əhəmiyyəti də az deyil. İndi dünyanın ən iddialı iqtisadi proqramı hesab olunan, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, elektrik xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni və dünya üzrə ümumi daxili məhsulun 40 faizini əhatə edir. Dünya Bankının məlumatına görə, hazırda dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Bir kəmər–bir yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard ABŞ dolları təşkil edir.

# Qarabağda torpaqlar icarəyə veriləcək

**Prezident İlham Əliyevin təsdiqlədiyi "Torpaq icarəsi haqqında" yenilənmiş qanunda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı təyinatlı torpaqların müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurumun həyata keçirdiyi investisiya müsabiqələri vasitəsilə sahibkarlıq subyektlərinə icarəyə veriləcəyi öz ifadəsini tapıb.**



Xatırladaq ki, dövlət başçısının bununla bağlı imzaladığı fərmanla "İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi Qaydaları" müəyyənləşdirilib.

Fərmana əsasən, Nazirlər Kabineti "Torpaq icarəsi haqqında" qanuna uyğun olaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi qaydalarını və güzəştin həcmini 3 ay müddətində təsdiqləyib bu barədə ölkə Prezidentinə məlumat verməli, kəndli-fermerlərin kənd təsərrüfatı təyinatlı torpaqları icarəyə götürmək məqsədilə "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə müraciət edə bilmələri üçün onların təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təminatını gerçəkləşdirməlidir.

Kənd Təsərrüfatı Nazirliyi isə aqrar təyinatlı torpaqların icarəyə verilməsinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə təşkili üçün tədbirlər görməli, sakinlərin məhsul istehsalı və emalı sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə onların təlim keçmələrini reallaşdırmalıdır.

İqtisadiyyat Nazirliyi işğalçıdan geri alınan ərazilər üzrə təklif daxil olduğu tarixdən 2 ay müddətində Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında torpaqların müəyyənləşdirilməsini və 5 hektardan az olmayan konturlara (parsellərə) bölünməklə kompleks yerquruluşu layihələrinin hazırlanmasını təmin etməli, icarəyə verilmiş torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatına alınmasını "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunla nəzərdə tutulan müddətdə və qaydada gerçəkləşdirməlidir.

Bundan başqa, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq üç ay müddətində torpaqlarda yol-nəqliyyat infrastrukturunun qurulmasını həyata keçirməli, "Azərişıq" ASC bu dövr ərzində torpaqları elektrik təchizatı şəbəkəsi ilə təmin etməli, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bir il müddətində ərazilərin suya ehtiyacını ödəməli, Maliyyə Nazirliyi müəyyən zəruri maliyyələşməni reallaşdırmalı, eləcə də tələb olunan vəsaitin növbəti illərin dövlət büdcəsində nəzərə tutulması üçün tədbirlər görməlidir.

# "Şimal-1" – 22 ildə 51,5 milyard kilovat-saat enerji

**İstismara verildiyi tarixdən 2024-cü il noyabrın 1-dək "Şimal-1" Elektrik Stansiyasında 51,52 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub.**



Energetika Nazirliyinin məlumatına görə, gücü 265 meqavat olan 1 ədəd qaz turbini və gücü 135 meqavat olan 1 ədəd buxar turbinindən ibarət buxar-qaz tipli stansiyanın ümumi qoyuluş gücü 400 meqavat təşkil edir.

Xatırladaq ki, "Şimal-1" elektrik stansiyası 22 il öncə – 2002-ci il noyabrın 29-da istismara verilib. 2 il əvvəl stansiyanın qaz turbini əsaslı təmir edilib. Təmir işləri çərçivəsində qurğunun 100 ton çəkisi olan rotoru dəyişdirilib. Bundan əlavə, stansiyanın sahil nasosxanasındakı nasoslar və fırlanan torlar dəyişdirilib, qazanların daxili izolyasiya örtüyü yenilənib.

Əsaslı təmir zamanı stansiyanın təsirlənmə sistemində də ciddi yenilik edilib. Belə ki, generatorun 20 il ərzində fəaliyyət göstərdiyi birkanallı təsir sistemi sabit funksiyalı yeni nəsil 2 kanallı təsirlənmə qurğusu ilə əvəzlənib. Bu da sistemin sabitliyini qorumaqla yanaşı, dayanıqlığı da artırıb. Görülmüş işlər nəticəsində "Şimal-1" Elektrik Stansiyasında 20 meqavat "itirilmiş" güc bərpa edilib.

# Kəndin ixrac coğrafiyası genişlənir

**Cari ilin yanvar-oktyabr aylarında ölkəmizdən 740,6 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz çoxdur.**




Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu sahədə ən yüksək gəlir pambıq mahlıcı ixracından əldə olunub. Belə ki, son bir ildə bu növ məhsulun ixrac dəyəri 63,3 faiz artaraq 160,4 milyon ABŞ dolları təşkil edib. Bununla yanaşı, hesabat dövründə Azərbaycandan xarici ölkələrin bazarlarına 142 milyon dollarlıq pomidor, 52,9 milyon dollarlıq xurma və 21,5 milyon dollarlıq tütün xammalı göndərilib. Cari ilin 10 ayında pomidor ixracının dəyəri 12,4 faiz, xurma ixracının dəyəri 14,7 faiz, tütün xammalının ixrac dəyəri isə 5,1 dəfə artıb.

Nazirliyin məlumatında qeyd olunur ki, aqrar məhsulların ixrac həcmi artdıqca ixracın coğrafiyası da genişlənir. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycandan kənd təsərrüfatı məhsulları, əsasən, ənənəvi bazarlara – Rusiya, Belarus və digər MDB ölkələrinə ixrac olunsa da, ixrac coğrafiyasına yeni ölkələr də daxil olmaqdadır.

# Fermerlərə 63,4 milyon manat güzəştli kredit

**Bu ilin yanvar–oktyabr aylarında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 3 min 360 fiziki və hüquqi şəxsə 63,4 milyon manat güzəştli kredit verilib. Bunun da 48,3 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 15,1 milyon manatı isə digər təyinatlı, əsasən mikrokreditlərdir.**



Bundan əlavə, hesabat dövründə agentlik tərəfindən 4 min 410 baş iribuynuzlu və 798 baş xırdabuynuzlu damazlıq heyvanın alışı üçün 15,2 milyon manat güzəşt vəsaiti ayırıb.

# 10 ayda özəlləşdirmə vəsaiti – 108 milyon manat

**Əmlak Məsələləri Dövlət Xidmətindən bildirilib ki, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində dövlət əmlakının özəlləşdirilməsi üzrə 43 hərrac keçirilib. Hərraclarda 6 səhmdar cəmiyyətin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 525 nəqliyyat vasitəsi satılıb. Hesabat dövründə hərraca çıxarılmış dövlət əmlakı üzrə elektron sifarişlərin sayı 391, "Elektron Hərrac" proqram təminatı vasitəsilə onlayn qoşulmaların sayı isə 48 olub.**




Cari ilin 10 ayında özəlləşdirmədən dövlət büdcəsinə 108,2 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artım qeydə alınıb.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu ilin yanvar-oktyabr ayları ərzində 519-u qeyri-yaşayış, 2 min 951-i isə torpaq sahəsi üzrə olmaqla 3 min 470 yeni icarə müqaviləsi bağlanılıb. Cari ilin 10 ayında daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 31,5 milyon manat vəsaitin ödənilməsi təmin edilib, ötən ilin eyni dövrü ilə müqayisədə 16,3 faiz artım olub.

Beləliklə, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə 139,8 milyon manat vəsaitin daxil olunması təmin edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artım qeydə alınıb.

# Yeni Vergi Məcəlləsi hazırlanır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin iclasında Azərbaycanda gələcək dövr üçün yeni Vergi Məcəlləsi üzərində iş aparıldığını bildirib.**

Bütün dəyişiklikləri özündə daha strukturlaşmış şəkildə əks etdirən, qanunvericiliyin birmənalı şəkildə tətbiqinə imkan verən daha sadə məcəllənin hazırlanıb təhvil veriləcəyini vurğulayan rəis müavini dəyişikliklərdə yerli istehsal avtobusların satışının ƏDV-dən azad edilməsi, insanların mədəniyyət müəssisələrinə ödədiyi ƏDV-nin 50 faizinin geri qaytarılması, bərpaolunan enerji layihələri ilə bağlı avadanlıqların idxalına vergi tutulmaması, dəmir yolu ilə daşınan tranzit yüklərə yol vergisinin şamil olunmaması və digər məsələlərin yer aldığını deyib.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Arazboyunda 24 günün 30 qələbə ünvanı

## *Vətən Müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılovun döyüş yolu*

**Vətən Müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin heyətində Cəbrayıl, Füzuli və Qubadlı rayonları, həmçinin Ərgünəş dağı və Hadrut qəsəbəsi istiqamətlərində gedən döyüşlərdə savaşmışdır. Ümumi olaraq 24 gün ərzində 30-dan çox yaşayış məntəqəsinin azad edilməsində şücaət göstərmişdir. Oktyabrın 19-da Qubadlı rayonu istiqamətində ciddi önəmə və strateji əhəmiyyətə sahib olan mövqelər uğrunda gedən qeyri-bərabər döyüşlərdə Sübhan Cəbrayılov və dəstənin bir neçə üzvü həlak olmuşdur.**



### Kəşfiyyatçı "Cəbi"

Sübhan Cəbrayılov 1983-cü il oktyabrın 23-də Salyan rayonunun Marışlı kəndində anadan olub. 1989-cu ildə R.Qafarov adına Marışlı kənd tam orta məktəbinin 1-ci sinfinə gedib və 2000-ci ildə məzun olub. Məktəbi bitirdikdən sonra 2001-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. "N" saylı hərbi hissədə qulluq etdikdən sonra hərbə böyük marağı olduğu üçün



2002-ci ildən xidmətinə Xüsusi Təyinatlı Qüvvələrdə davam edib. 2004-cü ildən Sübhan XTQ-nin Xızı rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Ölkə xaricində, xüsusilə Türkiyədə keçirilən bir çox təlimlərdə iştirak edərək yüksək göstəricilər əldə edib. Sonra Türkiyə–Gürcüstan–Azərbaycanın birgə təşkil etdiyi "ETERNİTTY–2019" təlimində də qatılıb. Xüsusi təyinatlılara verilmiş bütün çətin tapşırıqlarda yüksək səviyyədə iştirak edib. Çoxlu təltifləri olan peşəkar təyinatlı olub. O, həm də idmanın boks və güləş növü ilə məşğul idi.

Sübhan Cəbrayılov 2016-cı ildə Azərbaycan tarixinə Aprel döyüşləri kimi düşən 4 günlük müharibədə iştirak edir. Cəbrayıl və Talış kəndi istiqamətlərindəki döyüşlərdə şücaət göstərib. Müharibənin bitməsindən təsirlənib və "qisasımız qiyamətəmi qaldı?" – deyir.



### Qisas qiyamətə qalmadı

Lakin qisas qiyamətə qalmır. 4 il sonra o gün yetişir. Son dəfə sentyabrın 25-də ailəsi, övladları ilə vaxt keçirib, ertəsi gün "təlimə gedirəm"– deyib evdən çıxır.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin sərhədboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ilə ordumuz bütün cəbhəboyu zonada əks-hücum əməliyyatlarına başlayır. İlk gündən qızğın döyüşlərlərə qoşulan Sübhan Suqovuşan, Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan və Qubadlının azad olunmasında iştirak edir.

Sentyabrın 27-də səhər Azərbaycan və Ermənistan bölmələri arasında mövcud olan təmas xətti yarıldı və döyüşlərin birinci saatları ərzində Füzuli rayonunun beş yaşayış məntəqəsi – Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, Kənd Horadiz, Qaraxanbəyli və Qərvənd işğaldan azad edildi. Təmas xətti yarıldıqdan sonra Sübhan Cəbrayılov və silahdaşları Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə savaşır. Xüsusi Təyinatlı Qüvvələr tərəfindən dörd gün ərzində Cəbrayıl şəhəri istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Cəbrayıl şəhəri və rayonun 14 yaşayış məntəqəsi – Mehdili, Çaxırlı, Quycaq, Şəybəy, Cəfərabad, Çərən, Daşəsən, Dəjəl, Horovlu, Karxulu, Mahmudlu, Şürbəyli Aşağı Maralyan və Yuxarı Maralyan kəndləri işğaldan azad edilir.

Cəbrayılın azad olunmasında da XTQ-nin, xüsusilə, Sübhanın müstəsna xidməti olur. Cəbrayıl şəhəri və rayonun şərq hissəsi azadlığa qovuşduqdan sonra Xüsusi Təyinatlı Qüvvələr Füzuli istiqamətində döyüşlərə başlayır. Müharibənin birinci saatlarında işğaldan azad olunan və strateji əhəmiyyətə sahib olan Yuxarı Əbdürrəhmanlının Azərbaycan Ordusunun nəzarəti altında olması, Füzuli şəhərinə hücumu şərtləndirən amillərdən biri idi. Amma Ermənistan Ordusunun Füzuli şəhərində qurduğu güclü müdafiə xəttindən dolayı döyüşçülərimiz oraya Xocavənd rayonu ərazisindən daxil olmağı qərara alır. Həmin rayonda 10 gündən çox davam edən döyüşlər nəticəsində strateji əhəmiyyətə malik olan Hadrut qəsəbəsi işğaldan azad edilir. Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Sübhan Cəbrayılov və döyüş yoldaşları Hadrut uğrunda gedən döyüşlər zamanı bir sıra qəhrəmanlıq nümunələri göstərirlər. Bu nümunələrdən biri – baş gizirlər Sübhan Cəbrayılov, Camal İsmayılov, gizirlər Şəhriyar Quliyev və Elyar Vəliyevin Hadrut istiqamətində Ermənistan Ordusunun diversiya qrupunu pusquya salmaqları da daxildir.

Hadrut qəsəbəsinin azadlığından sonra Füzuli şəhəri istiqamətində irəliləməzdən əvvəl strateji önəmə sahib olan, Hadrut qəsəbəsinin və Füzuli şəhərinin arasında olan Ərgünəş dağı nəzarətə götürülməli idi. Döyüşlər Xüsusi Təyinatlı Qüvvələr və digər bölmələr tərəfindən Ərgünəş dağı uğrunda bir neçə gün davam edir. Yağışa, yorğunluğa, gecəyə-gündüzə, yuxusuzluğa baxmadan gedən döyüşlər nəticəsində əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Ərgünəş dağı işğaldan azad olunur. Bundan sonra – ayın 14-dən 16-na qədər – üç gün ərzində Bulutan, Edilli və Xırmancıq azadlığa qovuşur. Füzuli rayonu istiqamətində də ciddi irəliləyiş əldə olunur. Əvvəlcə Füzuli rayonunun qərb hissəsində yerləşən Qaradağlı, Qaraqollu və Xatınbulaq, bir gün sonra isə Arış işğaldan azad edilir.

Bununla da Azərbaycan Ordusu strateji nöqteyi-nəzərdən ciddi üstünlüyə sahib olur. Həm Xocavənd rayonunun şərq hissəsindən, həm də Füzuli rayonunun qərb hissəsindən şəhər nəzarət altına alınır və Füzuli əməliyyatının əsas hissəsi başlanır. 2 gün ərzində Füzuli istiqamətində ağır döyüşlər gedir. 2-ci Ordu Korpusunun, Xüsusi Təyinatlı Qüvvələrin və Daxili Qoşunların da qatıldığı ağır döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra kəndləri qısa müddətdə azad edir. Nəzarəti tam ələ alan Ordumuz Füzuli şəhərinə daxil olur.



Ayın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Füzuli şəhərinin 27 illik işğaldan azad olunduğu xəbərini xalqa çatdırır. O, həmçinin Füzuli uğrunda döyüşlərin ağır olduğunu vurğulayır və şəhərin böyük şücaət hesabına azad edildiyini bildirir.

Cəbrayıl şəhərinin və rayonun geniş bir hissəsinin, Hadrut qəsəbəsinin və ətraf yaşayış məntəqələrinin, həmçinin Füzuli şəhərinin və rayonun geniş bir hissəsinin azad edilməsindən sonra əsasən, Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlılarından ibarət olan dəstələrlə Azərbaycan Ordusunun bölmələri Zəngilan rayonu istiqamətində döyüşlərə qatılır və şəhər qısa müddətdə işğaldan azad olunur. Sonra Azərbaycan Ordusunun bölmələri Qubadlı rayonu ərazisinə istiqamətlənir. Ayın 18-də Qubadlı rayonu istiqamətində döyüşlər başlanır. Döyüşlər ərzində ordumuzun bölmələri Qubadlı rayonunun 10-dan çox yaşayış məntəqəsini azad edir. Oktyabrın 19-u Sübhanın Qubadlı rayonu istiqamətində son döyüşü olur.

### Şəhidlik məqamı

Sübhan Cəbrayılov və 40 nəfərdən ibarət olan qrup oktyabrın 19-da Laçın dəhlizinə nəzarəti ələ almaq üçün ciddi önəmə və strateji əhəmiyyətə sahib olan mövqelər uğrunda döyüşlərə daxil olurlar. Döyüşlər əvvəlcə Qubadlı rayonu istiqamətində olan əlverişli mövqelər uğrunda aparılır. Qeyri-bərabər şəraitdə olan döyüşlərdə Ermənistan tərəfdən 150–200 hərbi qulluqçu döyüşür. 7 saatdan çox davam edən ağır döyüşlər nəticəsində Xüsusi Təyinatlı Qüvvələrdə qrupun şəxsi heyətindən dörd nəfər – baş gizir Sübhan Cəbrayılov, baş gizir Camal İsmayılov, gizir Şəhriyar Quliyev və gizir Elyar Vəliyev şəhidlik məqamına ucalırlar. Cənazələri 3 gün neytral zonada qalır. Rəsmi məlumatlarda bildirilir ki, Sübhan Cəbrayılovun mənsub olduğu tabor müharibə zamanı Xüsusi Təyinatlı Qüvvələrin ən çox şəhid verən taborudur. Neytral zonadan 3 gün sonra nəşi götürülən Sübhan oktyabrın 23-də, doğum günündə Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Sübhan Cəbrayılova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilir. Sübhan Cəbrayılov ölümündən sonra, həmçinin "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilir.

Sübhan Cəbrayılova həsr olunmuş, onun döyüş qəhrəmanlıqlarından bəhs edən filmlərə baxıram. Filmdə Sübhanın dostları, döyüş yoldaşları, yaxınlarının onunla bağlı xatirələri, döyüş yoldaşlarının müharibə zamanı qeydə aldığı görüntülər əksini tapıb. Bu xatirələr onun Vətənə sonsuz bağlılığını, necə cəsarətli və döyüşkən ruha malik olduğunu gözlərimiz önündə canlandırır.

### Xatirələr dilə gəlir

XTQ-nin canavarı adlandırılan kəşfiyyatçı Sübhan Cəbrayılovun döyüş yoldaşı, **Vətən Müharibəsi Qəhrəmanı, Mahir Məmmədov o günləri xatırlayır:**

– Sübhanın döyüş hazırlığı yüksək səviyyədə idi. Qaraxanbəyli kəndində düşmənin sığındığı səngərin ələ keçirilməsində onun böyük əməyi oldu. Həmin səngər tutuldu və düşmənin xeyli sayda canlı qüvvəsi məhv edildi. Beləcə Qaraxanbəyli kəndi düşməndən tam təmizləndi. Sübhan Cəbrayılovun mənsub olduğu tabor üç gün ərzində Füzuli rayonu istiqamətində bir sıra əlverişli mövqeləri işğaldan azad etdi. Çətin tapşırıqlar zamanı subay silahdaşlarına deyirdi: "Siz arxadan gəlin. Biz evliyik. Uşaqlarımız var. Sizin geridə qoyduğunuz heç kim yoxdur". O həm də tibb mütəxəssisi idi. Döyüş vaxtı arxadan kömək çatmayanda özü yaralıları böyük məsafələr qət edərək çiynində atəş altından çıxarırdı. Heç bir şəhidi döyüş meydanında qoymurdu. Başından güllə yağa-yağa qucağında, çiynində daşıyırdı. Elə gün olmur ki, mən onları Şəhidlər xiyabanında ziyarət etməyim. Bir yerdə oxumuşuq, təlimlərdə olmuşuq, bir qabdan yemək yemişik. Bu qədər qardaş itkisi ilə barışmaq olmur.

**Döyüş yoldaşı, Vətən Müharibəsi Qəhrəmanı Əvəz Bani-Paşa danışır:**

– O, güclü, peşəkar, fiziki güclü, savadlı təyinatlı idi. Tibb mütəxəssisi olaraq peşəsini, ixtisasını mükəmməl bilirdi. Cəbrayılın alınması zamanı dəstədəkilər 3 gün susuz qalmışdılar. Sübhan su dalınca gedib və bir erməninin həyətinə girmişdi. Erməni dilində danışaraq onu aldadıb əsir götürmüşdü. Həmçinin təkbaşına düşmənin içərisi şəxsi heyətlə dolu "Ural" maşınını partladaraq məhv etmişdi. Sübhan və döyüş yoldaşları Hadrut uğrunda döyüşlərdə də qəhrəmanlıq göstərmişdilər. O, Camal İsmayılov, Şəhriyar Quliyev və Elyar Vəliyevlə Hadrutda düşmənin diversiya qrupunu erməni dilində danışmaqla aldadıb pusquya salmışdılar. Bir dəfə bir erməni çoban geyimində onların arasına sızaraq təxribat törətməyə çalışırmış. Sübhan həmin erməni hərbçisini danışığından başa düşüb məhv etmiş, digər erməni polkovnikini əsir götürmüşdü. Həmin erməninin üstündə döyüş mövqelərini əks etdirən xəritə aşkarlanmışdı. Onun unudulmaz bir sözü vardı. Bir çətinliyimiz olan kimi deyirdi: Təki Vətən sağ olsun.

Bir dəfə çətin bir əməliyyata girirdik. Mənə dedi ki, Paşa, mən yaralansam, məni hara qədər apararsan? Dedim son nəfəsim yetən yerə qədər. Qayıdıb soruşdum ki, sən məni hara qədər daşıyarsan. Cavab verdi ki, səni lap Sumqayıta kimi çiynimdə aparacam. Mənə o qədər pis təsir etmişdi ki...

**Şəhidin anası Ləzifə Cəbrayılova onun yoxluğuna inanmır:**

– Sübhan sonbeşiyim idi. Hərbi xidmətdə olarkən boyuna, bədəninə, fiziki qüvvəsinə görə onu XTQ-yə seçmişdilər. Həmişə hara getdiyini soruşanda deyirdi, təlimə gedirəm. Heç vaxt işi haqqında danışmazdı. Sonuncu dəfə oğlumla sentyabrın 25-də görüntülü danışdım. Dedi, təlimə gedəcəyəm. Mən də ona sağ-salamat geri dönməsini arzuladım. Daha bilmədim ki, bu təlim, o təlimdən olmayacaq. Balam geri dönməyəcək, qəhrəmancasına vuruşacaq və qəhrəmancasına şəhid olacaq. Anasına şəhid anası adı verəcək. Qubadlıda 2 kənd alındıqdan sonra oktyabrın 19-da şəhid olub. 20-də bizə xəbər verdilər. Nəşi 3 gün neytral ərazidə qalıb. Ölümünə inanmırdım, deyirdim, yox, o, heç vaxt şəhid olmaz, yanlış məlumatdır, övladım o yerləri əlinin içi kimi tanıyır. Oktyabrın 23-ü onun ad günü idi. Həmin gün Sübhanın səsi, özü yox, bayrağa bükülmüş tabutu evimizə gəldi. Elə o gün də dəfn etdik, amma yoxluğuna inanmıram. Nə yaxşı ki, balamın əziyyəti, qanı yerdə qalmadı. Torpaqlarımız azad edildi.

Aprel döyüşlərində də iştirak etmişdi. Döyüşlər bitəndə narahat olmuşdu ki, niyə saxladılar, torpaqlarımızı azad edib irəliləyirdik. Neçə ay özünə gələ bilmədi. Döyüş yoldaşları gözünün önündə şəhid olmuşdular. Onlar qardaşdan da artıq idilər. Bir qabdan yeyib-içirdilər. Həmin vaxt mən də çox qorxmuşdum. Dedim, bala, bəlkə bu işdən uzaqlaşasan. Çox əsəbiləşdi. Cavab verdi ki, "mənim yanımda yoldaşlarım şəhid olub. Ata evimdə 18 il qalmışam, 20 ildir ki, oradayam, onların qanını mən almasam, kim alacaq"?

Lələtəpənin alınmasında qəhrəmanlıq göstərmişdi. Prezident uğurlu döyüşçüləri yığıb təltif etdi, mükafatlandırdı. Onların arasında balam da var idi. Ürəyi Qarabağ ilə döyünürdü. Evdə az olurdu, həmişə Qarabağın qisası üçün hazırlaşırdı. Deyirdi, oranı alaq ki, bizdən sonrakı nəsil rahat yaşasın.

Vətən müharibəsində 4–5 gündən bir zəng edirdi. Çox sevincli olurdu. Çünki zəhmətinin bəhrəsini görürdü. O, qarabağlı deyildi, amma bir qarabağlı qədər sevinirdi. Füzuli alınanda telefonda qızı ilə danışdı. Dedi, "müharibə bitsin, gəlib səni Azıx mağarasına aparacağam".

İmanlı uşaq idi. Oruc tuturdu, namaz qılırdı. Deyirdim, bala, təlimlərdə olursan, oruc tutma, sənə çətin olar. Deyirdi, mənə Allah kömək edir, siz narahat olmayın.



Heç rayona gələndə də orucunu pozmurdu. Arzusu idi ki, Şuşaya gedib məsciddə namaz qılsın. Döyüş yoldaşlarına deyirmiş ki, oktyabrın 23-ü ad günümdür, ona kimi Şuşaya gedib çıxarıq. Ad günümdə Şuşada namaz qılacağam. Qismət olmadı.

**Sübhanın 2008-ci il təvəllüdlü Rahim adında oğlu və 2010-cu il təvəllüdlü Fidan adında qızı yadigar qalıb. Həyat yoldaşı Sevda Cəbrayılova deyir:**

– Sentyabrın 25-də "təlimə gedirəm"– deyib evdən çıxdı. Həmişəki kimi arxasınca su atdım. Dua etdim ki, sağ-salamat qayıtsın. Təəssüf ki, mənim dualarım qəbul olunmadı. Amma onun duaları qəbul olundu. Sübhan həmişə arzu edirdi ki, mən şəhid olum, təki torpaqlarımız azad edilsin. Namaz qılanda da son duası özünə şəhidlik arzulamaq idi. O, bunu dildə demirdi, həqiqətən torpaqların azad edilməsi üçün canını qurban demişdi, şəhidlik məqamına yüksəlməyi çox arzulayırdı.

Qəhrəmanımızın böyük arzusu Şuşanın azadlığını görmək olub. Sübhan döyüşlərdən bir müddət əvvəl yaşadığı evə baxaraq qardaşına deyibmiş: "Bu evə bayraq necə gözəl yaraşar". Yaraşır, doğru deyirmiş. Sübhanın oğlu Rahim onun hərbçi formasını geyməkdən qürur duyur. Atasının əşyalarını qoruyur, qayğısına qalır. Qızı Fidan isə hərbi həkim olmaq arzusundadır. İnşaallah, arzusuna çatar. Arzu edək ki, bir də ölkəmiz qan-qada görməsin, qapıları şəhid xəbəri döyməsin. Kimsənin balasının gözü yolda qalmasın.

*Zərifə HÜSEYNOVA*
*XQ*

Azərbaycanı tanıdanlar

# Ürək həkiminin könül dünyası

**Bu müsahibim başqalarına bənzəmir. Aşıb-daşan enerjisi, dağ şəlalələri kimi çağlayan, hətta fışqıran ideyaları, dilində sözə çevrilməzdən əvvəl yazıya, kitaba tökülən elmi mülahizələri, zamanı cilovlamağa çalışan, tarixin, musiqimizin, dinimizin dərinliklərinə baş vuran, sənətlə elmin, elmlə dinin vəhdətində gözəlliklər tapan, xristianlıq, iudaizm və islam haqqında kitablar yazan bir həkimlə söhbət edirik bu gün. 1993-cü ildə Seçenov adına Moskva Tibb Akademiyasının məzunu olmuş, Sovet məkanında təbabət sahəsində ən gənc elmlər doktoru, ən gənc professor Mehman Niyazi oğlu Məmmədov çoxdan Rusiya sərhədlərini aşıb, beynəlxalq aləmdə kardioloqlar cameəsinin seçilən üzvlərindən birinə çevrilib.**

***– Sizinlə ilk söhbətimiz 24 il əvvəl olub. Onda 31 yaşlı həmyerlimiz elmlər doktoru dissertasiyası müdafiə etmişdi və bu yaşda belə uğur bir sensasiya idi. Keçən müddət ərzindəki nailiyyətlərlə tanış olmaq, məncə, yaxşı başlanğıcdır...***

– Doktorluq dissertasiyası müdafiə etmək, müvafiq diplom almaq müəllifin elmi uğurunun tanınmasını, qəbul edilməsini sübut edir. Bundan sonra elmdə tutduğun yolu inkişaf etdirmək, məktəb yaratmaq lazımdır. Doktorluq dissertasiyamın mövzusu bir neçə istiqamətdə işləməyimə imkan verdi: birinci növbədə bu, Azərbaycanda da aktual problem olan ürək-damar xəstəlikləri ilə şəkər diabetinin birgə tədqiq edilməsi idi. Eyni zamanda bu, kişilərin sağlamlığı və onun kardioloji problemlərlə əlaqəsi kimi yeni istiqamətin başlanğıcı oldu. Ürək-damar xəstəliklərinin onkoloji xəstəliklərlə bağlılığı daha bir istiqamət idi. Bu 3 yöndə 6 il ərzində mənim rəhbərliyim altında 5 gənc həkim elmlər namizədi alimlik dərəcəsi üçün dissertasiya müdafiə etdi və mən professor oldum. Bu gün elmlər namizədi olanların sayı 10-a çatıb, 2 nəfər isə doktorluq dissertasiyası müdafiə edib.

Bu fəaliyyətlə yanaşı, rus və ingilis dillərində məqalə və monoqrafiyalar dərc etdirdim. Bu gün dərc olunmuş elmi məqalələrimin sayı 500-dən çoxdur, 23 monoqrafiyam var. Məruzə və mühazirələrlə yaxın və uzaq xarici ölkələrdə çıxışlar edirəm. Bu missiya ilə təxminən 80 ölkədə olmuşam.

Bir neçə il Rusiya Kardioloqları Milli Konqresinin katibi oldum, bununla təşkilatçılıq qabiliyyətimə, sanki, yeni nəfəs gəldi. Bakıda orta məktəbdə oxuyarkən 2 il komsomol təşkilatının katibi olmuşdum. Həmin təcrübə sonralar çox işimə yaradı.

Sonra Kardioproqress Fondu yaratdım. Hər il fondun təşkilatçılığı ilə Rusiyanın bölgələrinin və MDB ölkələrinin cəlb olunduğu 8 beynəlxalq və milli konfrans keçiririk. Fondun yaranması ilə bir vaxtda kardiologiya üzrə Rusiyada ilk və yeganə ikidilli beynəlxalq jurnal təsis etdim. Bütün məqalələr rus dilindən ingilis dilinə və ingiliscə məqalələr rus dilinə tərcümə olunur. Önəmli məqamdır ki, müəlliflərdən məqalələr üçün pul alınmır. Rusiya elminin inkişafı üçün müstəqil, akademik jurnal yarada bildiyimə çox sevinirəm.

Rusiyada və MDB ölkələrinin çoxunda profil üzrə buraxılan sanballı jurnalların redaksiya heyətinin üzvüyəm. Hazırda Rusiyada və MDB ölkələrindəki həmkarlarımla kardiologiya sahəsində problemləri öyrənən beynəlxalq tədqiqatlar aparırıq. Xüsusən Orta Asiya və Qafqaz reğionunda böyük işlər görülür.



2020-ci ildə Tacikistan Tibb Elmləri Akademiyası dahi Əbu Əli İbn Sinanın (qərbdə Avisenna kimi tanınır—CS) yaradıcılıq irsini öyrənmək sahəsində dərc etdiyim məqalələrə görə məni akademiyanın əcnəbi üzvü seçdi. Özbəkistanın Buxara şəhərində İbn Sina müzeyində mənim 5-i rus, 3-ü ingilis dilində olan 8 kitabımın saxlandığı guşə yaradılıb.

***– Kardioloq Məmmədov Moskva ictimaiyyətinə həm də təbabətdən kənar yaradıcı fəaliyyəti ilə tanışdır. Bu sahədə gördüyünüz işlər tibbi fəaliyyətinizə mane olmur?***

– Əksinə, yardım edir. Bu işlər əslində dünyanı bürüyən pandemiya zamanı üzə çıxdı. O zaman məsafəli iş formatı yarandıqdan sonra başqa istiqamətlərdə də özümü sınamaq imkanı yarandı. Musiqi təhsilim olduğuna görə az vaxtda 3 kompakt-disk (CD) hazırladım: Bütün musiqi janrlarının təmsil olunduğu Azərbaycan musiqi antologiyası, 1954–1996-cı illərdəki Azərbaycan filmlərinin "saundtrekləri" və korifeyimiz Müslüm Maqomayevin Azərbaycan haqqında və Azərbaycan dilində oxuduğu mahnılar.

Zəngin rəsm və illüstrasiyalarla işlənmiş Azərbaycan nağılları kitabını nəşr edib Rusiyanın böyük kitabxanalarına bağışladım.

Uşaq vaxtlarımdan evdə Hacı Zeynalabdın Tağıyevin xeyirxah əməlləri haqqında çox eşitmişdim və çoxdan onun barəsində kitab yazmağı düşünürdüm. Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları arxiv materiallarının surətini almaqda yardım etdilər və o dövrun tarixi hadisələri haqqında da material toplayıb onları sistemləşdirərək kitab halına gətirdim. Rus və ingilis dillərində buraxılan kitabın ingiliscəsini diplomatik kanallarla Avropaya və ABŞ-a göndərdim. Tağıyevin vəfatının bir əsrlik ildönümü münasibətilə Şərq müzeyində keçirilən təntənəli gecədə onun həyat və fəaliyyəti haqqında geniş məruzə etdim.

2022-ci ildə "Azərbaycan poeziyasının inciləri" almanaxını tərtib etdim. Kitaba Azərbaycan şairlərinin XII əsrdən indiki dövrə qədər yaratdıqları seçmə əsərlər daxil edilib. Müasir dövrə aid olan fəsildə bu gün Azərbaycandan kənarda yaşayan şairlərin də əsərləri yer alıb. Almanaxın Moskvada Xarici Ədəbiyyat Kitabxanasındakı təqdimatında poeziyamızın formalaşması və inkişafı haqqında mühazirə ilə çıxış etdim.

2023-cü ildə nəşr etdirdiyim 34 fəsildən ibarət Azərbaycan ensiklopediyası—"Azerbaycanika" vətənimizin tarixi, etnik-mədəni irsi, müasir nailiyyətləri haqqında məlumat toplusudur.

Keçən ilin digər nəşri İkinci Dünya müharibəsində Azərbaycanın roluna həsr olunub. Kitaba Rusiya Müdafiə Nazirliyi Baş Qərargahının Hərb Tarixi İnstitutu rəy verib. Həmin institut Böyük Vətən müharibəsində azərbaycanlıların rolu haqqında məruzə üçün məni 2 mötəbər tarixi tədbirə dəvət etdi. Kitab müharibədə iştirak etmiş ilk azərbaycanlı əks-kəşfiyyatçı qadın, akademik Qədriyyə Səlimovanın həyatından bəhs edir. Bu il Moskvada RF Mərkəzi Zabitlər Evində Qədriyyə Səlimovanın anadan olmasının 100 illiyi münasibətilə xatirə gecəsi keçirildi, kitabın təqdimatında generallar və professorlar çıxış etdilər.

2024-cü ildə hazırladığım "Qafqaz xalqlarının poeziyası" kitabı nadir nəşrdir. Burada ilk dəfə Şimali və Cənubi Qafqaz xalqlarının poeziya nümunələri bir kitabda toplanıb.

***– Qədriyyə Səlimovanın kitabının təqdimatı zamanı qonaqlardan birinin sualına cavab verərkən Vladimir vilayətində ürək-damar xəstəlikləri ilə bağlı elmi layihədən söz açmışdınız. O layihənin məğzi nədir?***

– Vladimir vilayəti Rusiyanın məşhur tarixi bölgələrindən biridir və burada yaşlı əhali arasında ölüm halları başqa regionlara nisbətən yüksəkdir. Bu problemi öyrənmək və ölüm hallarını azaltmaq məqsədilə əsas xroniki xəstəliklərin profilaktikası ilə məşğul oluruq. Bu, uzun müddət üçün nəzərdə tutulmuş elmi praktik fəaliyyət layihəsidir.

***– Yazı masamın üstündəki kitablardan biri "Pravoslav dinində təbabətin və bioetikanın əsasları" adlanır. Müəllifi Mehman Məmmədovdur. Bu mövzuya müraciət etməyiniz nə ilə bağlıdır?***

– Mən Azərbaycanda döğulub böyümüşəm. Ali təhsilim və peşə fəaliyyətim isə Rusiya ilə bağlıdır. Mənə həyat yolu göstərmiş müəllimlərimə, elmi rəhbərlərimə çox minnətdaram. Rusiyaya minnətdarlıq borcu kimi "Pravoslav dinində təbabətin və bioetikanın əsasları" kitabını hazırlayıb nəşr etdim. Kitabda təbabətlə dinin qarşılıqlı əlaqəsinə dair tarixi faktlar və müasir mülahizələr sistem halına salınıb. Kitaba Pusiya pravoslav kilsəsinin aparıcı mütəxəssisləri rəy veriblər.

Ümumiyyətlə, dini mövzulara həmişə maraq göstərmişəm. "İbrahim (Avraam) dinləri" seriyasında iudaizmin orta əsrlərdə inkişafına ciddi töhfə vermiş ilahiyyatçı alim və həkim Maymonid haqqında kitab yazmışam. Kitabda bu gün də aktual olan problemlərdən söhbət gedir. İsrailin din alimləri və həkimləri ilə birlikdə kitabla bağlı vebinar (veb-texnologiya vasitəsilə canlı efirdə keçirilən konfrans – CS) keçirmişik.

Bu günlərdə Məhəmməd peyğəmbər haqqında rus və ingilis dillərində kitabım çıxıb. Qərb mütəxəssislərinin rusca kitablarında İslam dininin yaradıcısı və islam dini haqqında çox vaxt əsası, sübutu olmayan tənqidə yol verilir, müsəlman ilahiyyatçıları isə hər şeyi ideallaşdırırlar. Mən peyğəmbərin həyatını hörmətkar üslubla obyektiv təhlil etməyə çalışmışam və kitabı əsasən böyük şəhərlərdə yaşayan, dini ayinlərin hamısına əməl etməsələr də, inanclarına görə müsəlman olanlar üçün nəzərdə tutmuşam. Bu kitab da Rusiyanın və müsəlman ölkələrinin alimlərinə və din xadimlərinə təqdim ediləcək.



***– Azərbaycan övladının ana vətənlə bağlılığı necədir, həkim kimi xəstələrinə məlhəm olurmu?***

– Əlbəttə. Son illərdə Azərbaycanın böyük şəhərləri Bakıda, Gəncədə, Naxçıvanda, Lənkəranda, Şəkidə, Mingəçevirdə və Qubada mənim təşəbbüsümlə elmi və praktik fəaliyyətlə məşğul olan rusiyalı həkimlərin də iştirakı ilə maarifləndirici konfranslar təşkil olunur. Azərbaycanın dörd şəhərində (Bakı, Gəncə, Şəki, Lənkəran), azərbaycanlıların sıx yaşadığı Marneulidə (Gürcüstan) və Dərbənddə (Rusiya) ürək-damar xəstəliklərinə səbəb olan amilləri araşdırmaq üçün beynəlxalq tədqiqatlar təşkil edilib. Tədqiqatların nəticələri nüfuzlu beynəlxalq jurnallarda dərc olunub, konqreslərdə məruzə edilib. Mənim rəhbərliyimlə Bakıda 1 namizədlik və 1 doktorluq dissertasiyası müdafiə edilib. Son vaxtlar TƏBİB qurumu ilə sıx əməkdaşlıq edirəm.

***– Söhbətimizin bir yerində musiqi təhsilinizin də olduğunu dediniz və bu yöndə gördüyünüz işlərdən danışdınız. Bir dəfə mənə Buxarada müğam dinləməyinizdən, onların problemlərindən danışmışdınız. O əhvalatı xatırlayırsınızmı?***

– Bəli. Ezamiyyətlərə getdiyim ölkələrdə həmişə tarixi abidələrlə, musiqi mədəniyyəti ilə maraqlanıram. Orta Asiyada olanda eşitmişdim ki, Buxarada "şaş makom" deyilən müğam musiqisi növü var, yəni altı muğam. Bu, farsdilli tacik musiqi janrı olub. Buxara əmirinin sarayında həmin musiqini orada yaşayan yəhudilər ifa ediblər. Sovet dövründə özbəklər də tədricən bu ifaları öyrəniblər. İndi yəhudilərin yerini özbəklər və taciklər tutub. Onların arasında bu muğam növünün müəllifliyi üstündə mübahisə gedir.

Oraya növbəti səfərim zamanı mötəbər müsiqi ustadı Tolib mənim şərəfimə ilhamla "şaş makom" oxudu. Azərbaycan musiqisini də gözəl bilir. Fəxrlə dedi ki, tarını Bakıda düzəltdirib. Azərbaycanda keçirilən müsabiqələrdə iştirak edib. Mənə göstərdiyi hörmət-izzətin qarşılığında "sizin üçün nə edə bilərəm" – deyə sual verdim Tolibə. Dedi ki, biz musiqi məktəblərində və konservatoriyada çox əziyyət çəkirik, çünki şaş makomun notları yoxdur əlimizdə, Ari Babacanov adlı bir yəhudi özü ilə xaricə aparıb. Əlimizdə cəmi bir not kitabı var, o da pis gündədi. O yeganə kitabın skan şəkillərini istədim. Moskvada onları təmizlətdim, kitab şəklində çap elədim, sonra Özbəkistan və Tacikistanın musiqi kolleclərinə, konservatoriyalarına göndərdim. Qədim musiqi janrının qorunmasına mənim belə töhfəm oldu. Kitabların bir qismini də musiqiçilərə, alimlərə, fondlara payladıq.

***– Bu məhsuldar fəaliyyət hesabatından sonra gələcək planlar barədə soruşmamaq düzgün olmaz. Bizi sizin istedadınızın hansı yeni çalarları təəccübləndirəcək?***

– "Təbabətlə incəsənətin ahəngi" adlı əsaslı monoqrafiyanı tamamlayıram. Bu sahədə Qərb alimlərinin əsərləri var, mən isə Rusiya alimlərinin və incəsənət xadimlərinin rolunu da əlavə edirəm. 2025-ci il Böyük Vətən müharibəsində Qələbənin növbəti yubiley ilidir. Azərbaycanın bu qələbədə iştirakı ilə bağlı tədbirlər nəzərdə tuturuq.

Azərbaycan xeyriyyəçiləri silsiləsindən Şəmsi Əsədullayevin həyatı haqqında kitab planlaşdırıram. Bilirsiniz, o Moskvada tatar mədəni mərkəzinin binasını inşa etdirib və Tatar Milli Cəmiyyətinə hədiyyə edib.

Daha bir arzum var. Qafqaz müharibələri, Zaqafqaziya quberniyası və bu tarixi dönəmdə Azərbaycanın rolu haqqında əsər yazmaq istəyirəm. Tarixə belə maraq həkim olmazdan əvvəl tarixçi olmaq istəyimin təzahürüdür. XX əsrin ortalarında Azərbaycan mühacirət ədəbiyyatı və Şərq ədəbiyyatının intibah dövrü (M.F.Axundov, Hüseyn Cavid, Mirzə Ələkbər Sabir) haqqında kitablar hazırlayıram.

Təbii ki, əsas ixtisas fəaliyyətim – xəstələrin müalicəsi, gənc alimlərin yetişdirilməsi, beynəlxalq layihələrdə iştirakım davam edir.

***– Söhbət üçün təşəkkür edirəm.***

***Söhbətləşdi:***
***Cəfər SADIQ***

**Moskva**

# Suriya: Hələb qan çanağına çevrilir



**Suriya müxalifəti hökumətə sürpriz yaşadıb. Belə ki, radikal "Heyət Təhrir əş-Şam" qrupu və Azad Suriya Ordusu çətiri altında toplanmış silahlı dəstələr sürətli hücum nəticəsində Hələb şəhərinin mərkəzinə daxil olublar. Hökumət qoşunları şəhəri, demək olar ki, heç bir müqavimət göstərmədən tərk edib. AP agentliyi xəbər verir ki, ötən gecə Hələbin qərb kənarında şiddətli döyüşlər gedib.**

"Anadolu" agentliyinin məlumatına görə, müxalif qüvvələr Hələbin mərkəzinə qərbdən daxil olub. 10 min şəhər sakini İdlib vilayətinə qaçıb. Hazırda yaraqlılar cənub, qərb və şimal cəbhələrində hücumlarını davam etdirirlər. Onlar Ər-Rəşiddin bölgəsinə daxil olaraq elmi-tədqiqat mərkəzini tutublar.

Şəhərin rəmzi sayılan Hələb qalası müxalifətin nəzarəti altındadır. Üsyançılar hökumətyönlü qüvvələrin tərk etdiyi, sursat və hərbi texnikanın məhv edilmədiyi Əbu Zuhur hərbi aviabazasına, Hələbin cənubunda, bu şəhəri Dəməşqlə birləşdirən magistral yolların kəsişməsində yerləşən Saraqeb, Xalsa və Xan Tuman şəhərlərinə nəzarət edir. HTŞ liderlərindən Həsən Əbdülqəni "Middle East Eye" nəşrinə verdiyi açıqlamada "yüksək strateji" bölgələri ələ keçirdiklərini bildirib. Əbdülqəni deyib: "Əməliyyatımızın məqsədi torpaqlarımızı Suriya və İran güclərindən azad etmək və xalqımızın sağ-salamat evlərinə qayıtmasını təmin etməkdir".

Hökumət qüvvələri də hücumun uğurlu olduğunu etiraf etməli olublar. Bildirilib ki, şəhərin kənarındakı Həmdaniyyə, Yeni Hələb və Zəhra oxu boyunca müdafiə xətti yarılıb.

Homs vilayətində də sakitlik pozulub. Suriyanın mərkəzində yerləşən bu vilayətin qərb hissəsinə ardıcıl hava zərbələri endirilib. Yerli mənbələrin məlumatına görə, hücumların hədəfində körpülər, hərbi qərərgahlar və avtomobil karvanları olub. Hökumətə yaxın mənbələr "Hizbullah"ın və İranın dəstəklədiyi digər qrupların fəal olduğu vilayətin qərbində güclü partlayışlar olduğu faktını təsdiqləyib. Homs əyalətinə hava zərbələri endirən təyyarələrin İsrailə məxsus olduğu ehtimal edilir.

Bəs müxalifət qüvvələrinin son hücumu nə ilə bağlıdır? Türkiyəli ekspertlər bildiriblər ki, Suriya müxalifət qrupları ilkin olaraq dinc sakinlərə qarşı hücumların həyata keçirildiyi Hələbə çoxdan planlaşdırılan "məhdud" hücuma başlayıblar. Hökumət qoşunlarının mövqelərindən geri çəkilməyə başlaması ilə hücum genişlənib. Hücumun məqsədi deeskalasiya (gərginliyin azaldılması-müəllif) zonasının sərhədlərini bərpa etməkdir.



Əslində, hücuma səbəb suriyalı müxaliflərin Rusiyanın Ukrayna ilə, İran və "Hizbullah"ın isə Livanda İsraillə müharibəyə "başlarının qarışmasıdır". Müxalifət Hələbi ələ keçirməklə Suriyanın şimalında status-kvonu öz xeyrinə dəyişməyə çalışır.

Müxalif qrupların hücumu isə bir sıra dövlətləri narahat edib. Rusiya prezidentinin sözçüsü Dmitri Peskov bildirib ki, Hələbə hücum Suriyanın suverenliyinə qəsddir və hücum dayandırılmalıdır.

Xatırladaq ki, "Heyət Təhrir əş-Şam" qrupu və tərəfdarlarının hücuma keçdiyi bölgələr Suriya hökuməti üçün xüsusi əhəmiyyət kəsb edir. Hələb ölkənin ikinci böyük şəhəri olmaqla yanaşı, həm də iqtisadi mərkəzidir. Böyük strateji əhəmiyyətə malik bölgənin itirilməsi Dəməşqi gələcək danışıqlarda çətin vəziyyətə sala bilər. Bu səbəbdən Bəşər Əsəd hökuməti döyüş bölgəsində Rusiya tərəfindən təlim keçmiş, əvvəllər "Pələng qüvvələri" kimi tanınan 25-ci Xüsusi Təyinatlı Diviziyasını yerləşdirib. İran isə birbaşa Hələbə müdaxilə etmək qərarına gəlib. Bildirilib ki, İran Livan və "Hizbullah"la quru əlaqəsini itirmək istəmir və bu səbəbdən İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hərbi kontingentini Hələbə cəlb edir. Beləliklə, qarşıda Suriyanı ağır döyüşlər gözləyir.

***P.ƏFƏNDİYEV***
***XQ***

Qarabağ Universitetinin 1 yaşı tamam oldu

# Xankəndidə təhsil bayramı








**Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli sərəncamı ilə Xankəndidə Qarabağ Universitetinin yaradılması tarixi zəfərimizin önəmli təcəssümlərindən biri oldu. Dünən ali məktəbin təsis edilməsinin ilk ildönümü universitetdə təntənə ilə qeyd edilib.**

Şənlik incəsənət fakültəsinin xorunun ifasında Dövlət Himninin səsləndirilməsi və Qarabağın azadlığı uğrunda qurban getmiş şəhidlərin xatirəsinin ehtiramla yad edilməsi ilə başlayıb.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov ali təhsil ocağının bir illik fəaliyyətində diqqətçəkən məqamlardan söz açıb. Qısa müddətdə əldə edilən nailiyyətlərdən danışan ali məktəb rəhbəri Qarabağ Universitetinin yalnız regionun deyil, ölkənin təhsil sistemində də önəmli rol oynamaq üçün bir sıra layihələr hazırladığını bildirdi. O, universitetin Qarabağ bölgəsinin təhsil və mədəniyyəində, eləcə də sosial-iqtisadi həyatının inkişafına mühüm töhfələr verəcəyini vurğulayıb.

Mərasimdə təhsil naziri Emin Əmrullayev Qarabağ Universitetinin kollektivini təbrik edib, ali məktəbə fəaliyyətində yeni uğurlar arzulayıb. O, böyük qələbəmizin töhfəsi, suverenliyimizin ifadəsi və öyünc timsalı olan Xankəndi universitetinin qısa müddətdə formalaşdırılmasının ciddi uğur olduğunu və təhsil, elm və innovasiya sahələrində fəaliyyətinin ölkə üçün önəmini vurğulayıb. Zəfər ünvanlı təhsil ocağında tədris prosesinin beynəlxalq meyarlara uyğun təşkil edildiyini, tələbələrə müasir və keyfiyyətli bilik-bacarıq əldə etmək imkanları təqdim olunduğunu qeyd edən nazir Qarabağ Universitetinin yaradılmasının tarixi hadisə olduğunu söyləyib.

Əlamətdar məclisi ali məktəbin "Cadenza" orkestrinin, incəsənət fakültəsinin müəllimi olan tanınmış sənət adamlarının və tələbələrin ifası müşayiət edib, milli müsiqi nömrələri iştirakçılara bayram əhvalı yaşadıb. Fakültə ali məktəbin ad gününə dekorativ-tətbiqi sənət sərgisi də hədiyyə edib.

***T.AYDINOĞLU***
***XQ***

Bölgələrdə ədəbi mühit

# Mingəçevir yazarlarının doğma ocağı





**Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin yaranmasının 25 illik yubileyi təntənə ilə qeyd olunub.**

Mingəçevir şəhər İcra Hakimiyyəti və AYB-nin yerli bölməsinin birgə keçirdiyi yubileyin iştirakçıları əvvəlcə mədəniyyət və incəsənətə, o cümlədən ədəbiyyata hər zaman böyük diqqət və qayğı göstərmiş Ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər. Mingəçevir Dövlət Universitetinin akt zalında keçirilən mərasimdə şəhər ictimaiyyətinin nümayəndələri, şair və yazıçılar bölmənin yaradıcı fəaliyyəti ilə ətraflı tanış olublar.

AYB Mingəçevir bölməsinin sədri, şair İsmayl İmanzadə ətraf rayonlardan olan yazarların da qatıldıqları təqdimat və görüşlərdən söz açıb. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov təbrik nitqində qeyd edib ki, bu qurum ötən müddət ərzində mingəçevirli yazarların sevimli yaradıcılıq məkanına çevrilib, ətrafında çoxlu sayda istedadları birləşdirib. Bir vaxt AYB sədri Anarın, şair Fikrət Qocanın iştirakı ilə yaradılan və uğurlarına xeyir-dua verilən filialın özünü doğrultduğu diqqətə çatdırılıb. Bu gün Prezident İlham Əliyevin cəmiyyətin ziyalı təbəqəsinə qayğısı mingəçevirli söz-sənət adamlarını da yeni-yeni gözəl əsərlər yaratmağa ruhlandırır.

İcra başçısı bildirdi ki, 25 ildə bölmənin səyləri ilə yerli yazarların yaradıcılığını əks etdirən maraqlı qəzet, jurnal, almanaxlar nəşr olunub. Mingəçevir yazarları şəhərin ictimai həyatında da yaxından iştirak edirlər. Elə 3 həftə əvvəl keçirilən Zəfər Günü təntənələri də göstərdi ki, şair və yazıçılar qalib millətin Qələbə salnaməsini gözəl bədii boyalarla qələmə alırlar.

Sonra bölmənin bir qrup yazarına Mingəçevir şəhər İcra Hakimiyyətinin fəxri fərmanları təqdim olundu. Filologiya elmləri doktoru, professor Rüstəm Kamal, uzun illər Mingəçevirdə yüksək vəzifədə işləmiş yazıçı-publisist Ramiz Göyüş ötən illərlə bağlı xatirələrini dilə gətirdilər, bölmənin üzvlərinə ən xoş arzularını çatdırdılar. MDU-nun rektor vəzifəsini müvəqqəti icra edən Üzeyir Zeynalov gənclərin ədəbiyyata önəm verməsini və bölmənin ətrafında cəm olmasını təqdir etdi. Ağdaş bölməsinin rəhbəri Fəxrəddin Əsəd, şairlərdən Namiq Zaman, Elşən Əzim, Nicat Hünalp şeirlərini söylədilər, ictimaiyyət nümayəndələrindən Rizvan Mikayıllı, İnqilab Şirinli ölkəmizdə ədəbiyyatın, mədəniyyətin inkişafı istiqamətində həyata keçirlən işlərdən, yazarlarla olan əməkdaşlıqlarından danışdılar.

Çıxışları dinlədikcə 25 yaşlı bölmənin keçdiyi uğur yolu gözlərimiz önündə canlandı. Sovet dövründə də burada ədəbi dərnəklər olub. Amma o zaman Mingəçevirin adı respublikamızın "ədəbi xəritəsinə" yazılmamışdı. İndi isə "Nur şəhəri" ədəbi mərkəz olub, AYB-nin yerli bölməsi isə Bozdağın qoynunda şölə saçan söz ocağına dönüb. Son illərdə burada "Aranın söz sovqatı", "Uzaqdan gələn səs", "Bir ocağın şöləsiyik", "Ruhumuzun yaz havası" adlı almanaxlar nəşr olunub və həmin toplulaların hər birinin həm Mingəçevirdə, həm də AYB-nin Natəvan klubunda təqdimat mərasimləri olub. Ölkə Prezidentinin sərəncamlarına əsasən, klassik və çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarının yubileyləri, çoxsaylı poeziya gecələri və kitab təqdimatları keçirilib.

Yubiley mərasimində təqdim olunan mahnı çələngi, aşıq musiqisi gecənin xoş ovqatını daha da artırıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Mingəçevir**

Məhəmməd Füzuli – 530

# Füzulinin ölməz dühası





**Bakı Musiqi Akademiyası nəzdində Opera Studiyasının Konsert salonunda AMEA-nın dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunmuş yekun mərasimi keçirilib.**

"Füzulinin sənət dünyası və Akademiyanın Füzulinaməsi" mövzusunda keçirilən mərasimdə millət vəkilləri, AMEA Rəyasət Heyətinin üzvləri, Akademiyanın həqiqi və müxbir üzvləri, elmi müəssisə və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə iştirakçılar Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Füzuli irsinə dair əlyazmaları və AMEA əməkdaşlarının şairin həyat və yaradıcılığına həsr olunmuş kitablarının sərgisi ilə tanış olublar.

Mərasimi giriş nitqi ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq Prezident İlham Əliyevin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 25 yanvar 2024-cü il tarixli sərəncamının işığında ölkəmizin digər qurumlarında olduğu kimi, elm məbədində də il ərzində silsilə tədbirlərin keçirildiyini, dahi şairin həyat və yaradıcılığı ilə bağlı geniş tədqiqatların aparıldığını, çoxsaylı kitabların nəşr edildiyini bildirib.

Mütəfəkkir şairin ana vətəninin Azərbaycan olduğunu söyləyən akademik İsa Həbibbəyli qeyd edib ki, alimlərimizin tədqiqatları Füzulinin Qarabağ bölgəsindən, bayat boyundan olduğunu göstərir. O, Bağdad, İraq, Kərkük-türkmən mühitində yetişib formalaşmış, orta əsrlər Azərbaycan dilinin bütün qüdrətini, özəlliyini əks etdirən dahiyanə əsərlər yaratmışdır. Füzuli Azərbaycan ədəbiyyatının görkəmli klassiki, türkdilli ədəbiyyatın ən böyük şairlərindən biri, eyni zamanda, dünya ədəbiyyatının yaradıcıları sırasında fərqli yer tutan ustad sənətkardır. Şairin qəzəllərini dünya ədəbiyyatında yalnız onunla eyni əsrdə yaşamış ingilis dramaturqu və şairi Uilyam Şekspirlə müqayisə etmək lazımdır.

Akademik İsa Həbibbəylinin sözlərinə görə, "Zira ki, elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur", – deyən Füzuli böyük ədəbiyyatın, böyük sənətin yaranmasında elmin qüdrətini səmimiyyətlə etiraf və təsdiq etmişdir. Elmi idrakla bədii istedadın vəhdəti Füzuli sənətini yaratmışdır. O, Azərbaycan ədəbiyyatını təmsil etdiyi qədər də milli mənəviyyatı, azərbaycanlı düşüncəsini təmsil edir.

Füzulinin çoxcəhətli bədii-fəlsəfi irsinin Azərbaycanda dərindən tədqiq edildiyini söyləyən AMEA rəhbəri qeyd edib ki, XX əsrdə şair haqqında yazılmış əsərlərin sırasında akademik Məmməd Cəfər Cəfərovun "Füzuli sevir", "Füzuli düşünür", "Füzuli yaşayır" adlı silsilə məqalələrini, akademik Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyasını, görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabını, professor Mirzağa Quluzadənin "Füzulinin lirikası" əsərini və digərlərini göstərmək olar. Bu əsərlər XXI əsrdə də dünya dillərinə tərcümə edilib və dünya Füzulişünaslığının təməl əsərləridir. Müstəqillik illərində akademiklər Rafael Hüseynov, Teymur Kərimli, professor Ataəmi Mirzəyev və başqalarının çap olunan əsərləri həm Azərbaycan ədəbiyyatşünaslığında Füzuliyə həsr edilmiş fundamental tədqiqatlar kimi, həm də dünya Füzulişünaslığını zənginləşdirən əsərlər kimi dəyərlidir.

AMEA-nın Ədəbiyyat İnstitutunun Füzulişünaslıq sektoru tərəfindən son 5 ildə 10 monoqrafik əsərin çap edildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, bu il keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisində institutun nəşr etdiyi "Füzuli kitabxanası" seriyası Mədəniyyət Nazirliyi tərəfindən sərginin "Ən yaxşı kitab"ı seçilib. Çıxışının sonunda AMEA prezidenti qeyd edib ki, Füzuli haqqında aparılan tədqiqatlar onun doğma xalqına, Türk dünyasına və şairi dünyaya tanıtmağa xidmət edir, dahi mütəfəkkirin əbədiyyətini isbat edir.

Sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı kollektivinin ifasında "Leyli və Məcnun" operasına baxış olub. Xatırladaq ki, Müsəlman Şərqinin ilk operası, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yazdığı "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulub. Məhəmməd Füzulinin eyniadlı poeması əsasında yazılan "Leyli və Məcnun" operasının ilk rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhim bəy Haqverdiyev olub.

***Ə.DOSTƏLİ***
***XQ***

Türk dünyası

# Aktau mədəniyyət paytaxtı olacaq

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına – TÜRKSOY-a üzv dövlətlərin Aşqabadda keçirilən 41-ci toplantısında Aktau 2025-ci ildə Türk dünyasının mədəniyyət paytaxtı elan edilib.**



Qazaxıstan mətbuatına istinadla xəbər verilir ki, tədbirdə TÜRKSOY-un Baş katibi Sultan Raev, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Türkiyədən mədəniyyət sahəsinin nümayəndələri, eləcə də beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

Görüşdə əsas diqqət türk mədəniyyətinin inkişafına və türk dövlətləri arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə yönəldilib. İştirakçılar türkdilli xalqların mədəni irsinin qorunub saxlanılması və populyarlaşdırılması istiqamətində birgə səylərin gücləndirilməsini müzakirə edərək qərarlar qəbul ediblər.

Qeyd edək ki, TÜRKSOY-un təşəbbüsü ilə hər il türkdilli dövlət, yaxud regionların şəhərlərindən biri Türk dünyasının mədəniyyət mərkəzi seçilir. 2016-cı ildə Azərbaycanın Şəki, 2022-ci ildə Şuşa şəhərləri də bu şərəfə nail olub.

***XQ***

Məşğulluq

# “Kommunal”ın kartı cibimdə olsaydı...

**Bir qohumum vardı. İldə 4 dəfə harasa işə girir, ildə 4 dəfə də “ağırdı” deyib işdən çıxırdı. Orta məktəbi güc-bəla ilə qurtaran bu pəhləvan cüssəli qohumu mən də tanış-bilişimə, ərkim çatdığı adamlara tapşırmışdım, onlar da sağ olsunlar, “gəlsin işləsin” deyərək sözümü yerə salmamışdılar. Amma hər dəfə də dediyimə peşman olmuşdum. Çünki ən yaxşı halda getdiyi yerdə üç ay qala bilmişdi. Sonra da “a qohum, mənə asan iş olsun” deyərək iki gündən bir yanıma gələr, xeyli vaxtımı alardı...**

Bir gün təcili çapa gedəcək bir yazı üzərində işləyirdim, necə deyərlər, başımı qaşımağa macalım yox idi. Bir də gördüm qapım yavaşca aralandı və iri bir baş göründü. Bu o idi! Elə bil məni ildırım vurdu, nə yazdığımı, nədən, kimdən yazdığımı da unutdum. Əsəbimdən masanın üstünə tökülmüş kağızları daha da qatıb-qarışdırdım, onun dili ilə “hə, eşidirəm a qohum” deyərək əllərimi qoynumda çarpazlayaraq hirslə onu başdan-ayağa süzdüm. Gözüm fil ayağı boyda əllərinə, sağ qoluna yazdırdığı “ana” sözünə sataşdı və bu dəfə özümdən asılı olmadan əlimdəki qələmi necə sıxdımsa, ortadan iki bölündü.

Yadıma düşdü ki, anasını bunun dərdi öldürmüşdü. Bütün günü onun-bunun qapısında işləyən, ev təmizləyən, yorğan-döşək sırıyan yazıq arvad yorğun-arğın evə dönəndə baxırmış ki, bu, isti odun peçinin qırağında bürüşüb yatır, yaxud da üç-dörd nəfər özü kimi qollarına “ana” yazdıranları başına yığıb domino oynayır...

– Qohum, elə iş olsun ki...

Otaqda çox qalmasın deyə ayağa qalxmışdım. Sözünün arxasını gətirməyə imkan vermədim, tez də “tapmışam” deyib düz gözlərinin içinə baxdım. Az qala bu divardan o biri divara çatan qollarını geniş açıb məni qucaqlamaq istədi. Yüngülcə araladım. Hiss etdi ki, əsəbiləşmişəm, könlümü almaq istədi:

– Qohum, bir də mən sənin yanına iş üçün gəlsəm, papağım boş qalsın...

Dedim “papaqla işin olmasın, qulaq as. Ən asan işdir. Demək olar ki, heç nə etmirsən, aydan-aya maaşını alırsan...”

– Sənin qadan alaram qohum, de, ürəyim partladı, hardadı o iş ?

– Poctda. Qapının girəcəyində bir stul qoyacaqlar və sən rahatca əyləşəcəksən orada. Elə ki, gördün kimsə konvert alıb məktubu qoydu onun içərisinə, sən tez qalxıb dilini çıxaracaqsan və o da konvertin yapışqan hissəsini sənin dilinə sürtüb aralanacaq, vəssalam. Bu qədər sadə və rahat.

Bayaqdan qarşımda parıldatdığı iri qızıl dişlərini birdən gizlətdi, ciddi görkəm alıb “qohum, onun özünün dili yoxdur?” deyə donuq baxışlarını üzümə zillədi.

– Əlbəttə var, – dedim, sadəcə, hamısı mədəni adamlardır, istəmirlər ki, dillərini çıxarsınlar...

Bir xeyli üzümə baxıb heç nə demədən qapını açdı və ilan vurmuş adam kimi dəhlizə çıxıb qaçmağa başladı. Arxasınca “bəs poçta nə vaxt gedək?” desəm də, əlini yelləyib gözdən itdi...

Bu əhvalatı təsadüfən xatırlatmadım. Bəli, bəzi peşə sahibləri var ki, doğrudan da onlara ixtisaslarına uyğun iş bəzən olmur, yaxud elə sınaq imtahanlarından keçə bilmir və sair. Lakin heç bir ixtisası olmayan, orta məktəbi bitirənlər də “asan iş” sorağında aylarla, illərlə evdə isti peçin kənarında bardaş qurub mürgüləyirlər.

– “Kommunalın” kartından versəydilər, böyük köməyiniz dəyərdi müəllim...

Şəhər və rayonların icra hakimiyyəti başçılarının qəbullarında və səyyar görüşlərində eşitdiyim sözlərdir. Baxırsan ki, cavan, sağlam, enerjili bir gəncdir. Fabrikdə iş təklif olunur, “belim ağrıyır, ağır yük götürə bilmərəm, kommunal...” deyir.

Bilirsiniz, bu “kommunal” söhbəti haradan qalxıb? Vaxt olub ki, kommunal-istehsalat birlikləri və ya kombinatları



əməlli-başlı müftə qazanc mənbəyi olan yerlərə çevrilib, hər ay müntəzəm pul alanların (bəlkə, indi də var) “iş yerləri” olub. Bəzi təsərrüfat rəhbərləri həmin maaş kartlarını yaxın adamlarına paylayıb və təbii ki, müəyyən maddi marağın müqabilində. Bəzən də icra hakimiyyətlərinin özündə bu kartlara göz dikənlər və ələ keçirənlər olub. Yada salaq bir neçə il qabaq həm də bu “qara işlər”ə görə məhkum edilmiş rayon rəhbərlərini, digər məsul şəxsləri.

…Qazax və Ağstafada işləmək istəyənləri “Saloğlu” şirkəti həmişə işə dəvət edir. Maaş da pis deyil. Amma gedən yoxdur, “gözətçi yeri olsa gedərəm” deyən daha çoxdur. Şəmkirdə hara baxırsan, istixanalardır, şitilliklərdir. Az qala respublikanın xiyar və pomidor məhsulunun yarısını bu rayon ödəyir, başqa ölkələrə də göndərir. Yəni sahibkarlara işçi qüvvəsi ilboyu hava-su kimi lazımdır. Di gəl çayxanalarda nərd oynayıb, axşam evə çatanda “iş yoxdur” deyib uşaqlarına yalan danışanlar da az deyil. Qəribədir ki, “pensiyamı artırsalar, işi neynirəm?” deyənlər də var. Gədəbəydə halalca torpağını əkib becərmək, məhsulunu bazara çıxarıb satmaq əvəzinə, “iş axtarıram” deyənlərin sayı günbəgün artır.

Tovuzun Əyyublu kəndinə yaxın yerlərdən, hətta qonşu rayonlardan işləməyə, fermerlərin təsərrüfatlarında çalışıb pul qazanmağa hər gün 100-150 adam gəlir. Belə nümunələrin sayı çox olsa yaxşı deyilmi?

…Çox görmüşəm, icra hakimiyyəti başçılarının qəbullarına iş üçün bəzən elə adamlar müraciət edirlər ki, məəttəl qalırsan, deməyə söz tapmırsan. Ağstafa rayon icra hakimiyyəti başçısının müavini – sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İlqar Hacıyevlə söhbət edirəm. Deyir, təbii ki, hamını ixtisasına uyğun işlə dərhal təmin etmək çətindir. Bu sahədə problemlər var. İstərdik ki, iş yerlərimiz daha çox olsun. Amma necə deyərlər, gərək “ayağını yorğanına görə uzadasan”, daha illərlə seçim qarşısında qalmayasan, təklif olunan işlə razılaşasan”.

İlqar müəllim onu da dedi ki, Ağstafada da istixanalar, meyvə bağları, limonad sexləri, digər fərdi sahibkarlıq obyektləri çoxdur: “İnanın, hər gün bizim şöbəyə, məşğulluq idarəsinə zəng edib işçi axtaran onlarla sahibkar tanıyıram.”

Bəs niyə belədir? Bu ətalət, bu tənbəllik, bu ələbaxımlılıq haradan qaynaqlanır?! Cavab sadədir. Rahatlıq. Amma belə bir məsəl də var. Deyir “sən ağa, mən ağa, inəkləri kim sağa?”

Yuxarıda qeyd etdik. Bəli, təklif olunan iş, vəzifə bəzən hər kəsə uyğun gəlmir. İş yerlərinin daha rəngarəng, çoxprofilli olması, regionlarda, xüsusilə dağlıq rayonlarda məşğulluğun artırılması üçün təsirli tədbirlər görmək lazımdır. Onu da qeyd etməliyik ki, dövlətin bu sahədə geniş və məqsədyönlü proqramı var və onlar həyata keçirilir. Bunu görməmək, inkar etmək ən azı insafsızlıqdır.

İşin yaxşısı, pisi, asanı, ağırı, yoxdur, şərəflisi, şərəfsizi var. Evinə halal yolla bir tikə çörək aparırsansa, demək şərəfli bir işin var, dünyanın ən xoşbəxt adamısan. Pis odur ki, hər şeyə ağız büzəsən. Elə mənim qohumum kimi…

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

Aman tənhalıq

# Özgələrə doğma, doğmalara yad...

**O, uzun stolun yanındakı çarpayıda uzanmış arvadının yanında oturdu. Tənbəki çəkir, öz-özünə anlaşılmaz sözlər pıçıldayır, qəfəsdə o yan-bu yana çırpınan boz quşcuğazın tənha həyatına göz qoyurdu. Hərdən astadan ağlayır, sonra toxtayan kimi olurdu. Cib telefonunu çıxarıb bir-iki rəqəm yığır, ardını gətirməyə tərəddüd edirdi. Pəncərəyə baxır və düşünürdü ki, son günlər hava tez-tez dəyişir – gah yarpaq tökülür, gah çiskinli yağış yağır, gah da duman-çən çökür. Günəşin, sanki, sellofan çəkilmiş pəncərədən süzülən şüaları bir işə yaramırdı. Qarı indi belə üşüyürsə, qışda onu bir soba da qızdırmayacaq.**

– Ceyhun gəldi? – deyə qarı bu gün azı 5-ci dəfə soruşdu.

– Yox hələ, gəlməyib.

Qarı dirsəyini yastığa dayayıb bir qədər dikəldi:

– Zəng eləmisən?

Qoca gizlətmədi:

– Hələ yox.

– Bəs nəyi gözləyirsən, ölməyimi? Zəng elə, de ki, nəvələrimi də gətirsin, son dəfə balalarımı görmək istəyirəm.

Qoca baxışlarını qarının sualedici nəzərlərindən yayındırıb yerə dikdi. Necə desin ki, zəng vurmuşdu, amma Ceyhunun işi varmış, hələ gələ bilməyəcək. Rəis adamdı, boş-bekar deyil ki, anasının nazı ilə oynaya. Təyyarəyə bilet almağın çətinliyi də bir tərəfdən. Qoca bir də ona görə təkid etməmişdi ki, əvvəllər qarının israrına rəğmən o uzaqlıqda yolu qət edərək gəlib, anası ölməyib, hətta dirçəlib bu gəlişdən. Oğlu deyinə-deyinə şəhərə qayıdıb. Bunları xatırlatsınmı qarıya?

Axşamüstü qarı yuxusuzluqdan qızarmış gözlərini tavana dikib orada hərəkət edən hörümçəyin gedişini sayırdı. O başbu başa 47 gediş eləmişdi...

Oğlundan əvvəl həkim gəldi. Qoca qarının say-hesabından təşvişə düşüb təcili yardıma zəng vurmuşdu. Həkim tibbi çantanı taxtın küncünə qoyub qoşa rezinli fonendoskopu çıxardı, qulağına taxıb ürək və ağciyərin səsinə qulaq asanda qarı sonuncu dəfə:

– Ceyhun, gəldin? – deyə səsləndi və gözlərini əbədi yumdu.

Həkim başını qaldırıb qocaya astaca, – Başınız sağ olsun, – dedi.

Qoca ağlaya bilmirdi. O, maddım-maddım arvadının cansız vücuduna baxırdı. Xəstəlik qarını qupquru qurutmuş, üzüntü və intizar vücudunu daha da kiçiltmişdi. Oğul və nəvələrinə bol və sağlam həyat bəxş etmiş qarı özü üçün xəsiscəsinə xırdaca, qənaətə alışmış bədən saxlamış və lap miskin görkəmdə də olsa, uzun müddət onu qorumağa çalışmışdı ki, sağ qalıb uşaqlarını sevə bilsin, onlarla fəxr etsin.

Qoca alətlərini yığışdırmaqda olan həkimdən qarının ölüm səbəbini soruşdu. Əvvəllər də belə çağrışlara gəlmiş həkim bircə kəlmə cavab verdi:

## Tənhalıq

Tənhalığı tez-tez müasir insanın başlıca problemi adlandırırlar. İddia edirlər ki, tənhalıq artıq dünyada əsl epidemiyaya çevrilib. O, insanın emosional vəziyyətlərindən biri kimi sosial izolyasiya nəticəsində yaranır, digər insanlarla emosional əlaqələr mövcud olmadıqda meydana gəlir. Tənhalıq cəmiyyətdən təcrid olmaqdır, sağlamlıqla bağlı problemlərə yol açır, Bəlkə də, siz tənhalığın sağlamlığa məhvedici təsir göstərməsi barədə statistika ilə qarşılaşmısınız: ürək xəstəlikləri və insult riski azı 3 dəfə artır, tənhaların qan təzyiqi yüksəkdir və gözlənilən ömür həddi aşağıdır.

Hər gün sağımızdan, solumuzdan nə qədər tənha insanlar keçir. Əzgin, yorğun və kədərli. Onların çöhrəsi qəmli, baxışları nigaran, əhval-ruhiyyəsi aşağıdır. Onlar milyonlarla insan arasında özünü tənha hiss edir, qəlbi kimsəsizlikdən sıxılır. Tənhalıq varlı və ya kasıba, hiyləgər və ya sadəlöhvə, axmaq və ya dahiyə baxmır. O qapını döyüb, açılmağını gözləmir. Onda bütün qapıların açarları var.

Qəbul günləri olmasına baxmayaraq o, istədiyi zaman nazirin kabinetinə daxil olur. Sürücü ilə yol gedir, bənna ilə daş hörür, çobanla qoyun otarır. Onun cəngindən kimsə xilas ola bilmir. Kimisi bu bəladan tez, kimisi də gec xəbər tutur. Onlar cəmiyyətdən təcrid olunduqlarını o zaman anlayır ki, doğma nəfəsə ehtiyac yaranır, dost-tanışları xatırlayır. Heyhat, artıq qatar gedib, o, tənhadır, o, heç kimdir. Rüstəm İbrahimbəyovla Nikita Mixalkovun 1998-ci ildə çəkdikləri ”Sibir bərbəri” filmində deyildiyi kimi: – Mən heç kiməm. Kaş biləydiniz, nə qədər heç kiməm.

V. Hüqonun “Səfillər” romanında zamanın ən ağır sınaqlarından mətanətlə çıxmış Jan Valjanı canı qədər sevdiyi Kozettadan ayrılıq dərdi öldürür. Ölüm yatağında ona baş çəkən Kozetta və Marisun xoşbəxt olması üçün dua edərək və illər öncə keşişin ona hədiyyə etdiyi gümüş şamdanları Kozettaya verərək gözlərini əbədi yumur.

Qabriel Qarsia Markesin “Yüz ilin tənhalığı” romanı tənhalığın ədəbi abidələrindən biridir. Buendia ailə üzvlərinin bir-birindən aralı düşməsi, onların bir-birini anlaya bilməmələri romanda mifik xarakter daşısa da, tənhalığı çılpaq həyat həqiqətləri ilə əks etdirir.

Yazıçı Anarın “Dantenin yubileyi”ndəki Feyzulla Kəbirlinski istedadsız deyildi, amma olduğu yer, məkanda istedadsız görünürdü. İstehzalardan qaçaraq öz dünyasında yaşaması onu tənhalığa düçar edir. İçində dünya boyda olan sevgisi nifrətə çevrilir. Saysız-hesabsızdı belə ədəbi nümunələr.

Naxçıvan radiosunun canlı efirində tənhalıq mövzusuna həsr olunmuş verilişdə dinləyicilərdən biri zəng edərək onu narahat edən bir məsələdən danışdı. Bildirdi ki, ailə başçısıdır, əzizləri, yaxınları var, özünü onlarsız təsəvvür edə bilmir. Əvvəllər nəvələri ilə səfərlərə çıxır, nağıl danışır, həyət-baca işləri ilə məşğul olur, kitab oxuyur, musiqi dinləyir, televizorda verilişlərə baxırdıq. İndi nəvələr böyüyüb, artıq ona yaxın gəlmirlər. Eləcə də digərləri. Özünü daim yalqız hiss edir, gedəcək bir yeri də yox.

Vaxtaşırı daxilində boşluq hiss edir, hansı ki, həmin boşluq kiminsə ünsiyyəti ilə dola bilər. Dostlarla vaxt keçirmək istəyir, amma onlar hamısı məşğuldu.

Heç kim səni sona qədər anlamır, heç kim imkan vermir ki, özünü olduğun kimi ifadə edə biləsən, heç kim ruhunu, qəlbini isidə bilmir...

Bu hal təkcə həmin dinləyicinin deyil, yüzlərlə digər yaşlı insanın taleyindən keçir. Sevdikləri artıq ona laqeyd, biganədir. O, gülüzlü nəvəsini qucaqlayıb bağrına basmaq istəyir, nəvə isə istəmir, onun ayrı dünyası var.

Təkcə bu, mənfi enerji ilə yüklənməyə kifayət edir.

Tənhalıq bədbəxtliyin giriş qapısı, normal vəziyyətdən və ya inkişaf prosesindən ağrılı bir sapma, anormallıqdır. Bu anormallıq isə insanı xəbislik, qeybətcilik, bədnəzərlik kimi neqativ enerji mənbəyinə də çevirə bilir.

## Təkliyin ağrıları

Gözdəyməyə, bədnəzərliyə inanmıram. Amma xalq təbabətində o qədər misallar var ki... Tənha ömür yaşayanların bir qismində orta dalğalı ultrabənövşəyi şüaların əmələ gəlməsi hallarından da bəhs olunur. Nağıl qəhrəmanları Goygöz Kosa, Ölməz Kaşşey kimi ömrünü tənhalıqda keçirən gözü göy, saqqali sarı adamların baxışlarından daş çatlayar, təbii fəlakət baş verər, dağ oynayar yerindən. İddia olunduğu kimi, əvvəllər insanların bu baxışlardan qorunması üçün müəyyən özünümüdafiə vasitələri olsa da, indi gözdəymənin qabağını almaq üçün gözmuncuğu, qaratikan, nal, nəzər ayəsi yazılmış duanı gəzdirmə kimi batil üsullar da işə yaramır.

Bu yaxınlarda teleaparıcı Elgiz canlı bağlantıda bədnəzərdən qorunmaq üçün belə bir məsləhət verdi: “Sancağı götürün və başı aşağı, paltarın içəri tərəfindən bağlayın. Mən özümü neçə ildir belə saxlayıram. Çünki bu yaraşıqda, çətin ki, tab gətirə bilərdim”. Bu məsləhət Şou.az net saytında gündəmə çevrilsə də, aparıcının özünün iddia etdiyi kimi, bu üsul yalnız yaraşığı qorumaq üçündür. Elgizin yaraşığına baxıb bu məsləhətin nə qədər əhəmiyyətli olduğunu da müəyyən etmək olar.

Avtomobil almışdım, yolda Qoçüstü məhəlləsində bir vaxtlar qonşu olduğum keçmiş qonşumu piyada görüb götürdüm. Eynən Göygöz kosa misallı. Uzun müddətdir ki, tənha yaşayır. Hal-əhval tutduq. Güzəranımla, evdəkilərin, qohum-əqrabanın səhhəti ilə maraqlandı, hər dəfə “yaxşı”– dedikcə dilxor olurdu. Dirəşirdi ey, birini nasaz çıxarmayınca əl çəkmirdi. Nəhayət, sülaləmdən birini nasaz çıxarmalı oldum. Üzünə gün doğdu. Dedi ki, mənim də bir qohumumda da eynən o xəstəlik vardı, iki il çəkdi.

– Bəs sonra?

– Sonra canını tapşırdı Allaha!

Sükandan yuxarı gözmuncuğu yellənsə də, axşamüstü maşın işıq dirəyinə çarpıldı.

Televiziyada Serbiya prezidenti Boris Tadiçin Azərbaycana səfərindən hazırlanmış reportaja baxırdıq. Həmin qonşum Tadiçin əyləşdiyi maşını tərifldi. Ölkəsinə geri dönəndən sonra Boris Tadiçə sui-qəsd edildi.

Digər bir ölkənin prezidenti heyəti ilə təyyarə qəzasında həlak oldu.

Qonşum ona da bəytərifi demişdi.

Bu qənaətə gəlmişəm ki, belə adamlar ölkənin “milli sərvətidir”. Onlar olan yerdə düşmənlə müharibəyə top-tüfəng lazım deyil. Sadəcə, bədnəzəri sərhəddə yerləşdirib, qarşı tərəfi müşahidə etməsinə şərait yaradırsan. Qoy, düşmən ordusunu tərifləyib, bir-iki xoş söz də desin. O orduya qaşınma düşməsə və qaşına-qaşına qaçıb getməsələr, onda mən heç nə bilmirəm. Hələ silahlarını təriflәsə... İnanın ki, tankların lüləsi sual işarəsi kimi əyilər, topları taraqqaya dönər, İsgəndər raketi İsgəndər kababına dönər. Beləliklə, hamı yeyib-içər və haqq-ədalət öz yerini tapar.



## Xoşbəxtlik axtarışı

Toydayam. Cütlüyün sağlığına badələr qalxır, şıdırğı rəqslər bir-birini əvəz edir, bəylə gəlin isə gözlərini telefondan çəkmirlər. Axı, həyatının ən gözəl anında, əziz və doğmaları, qohum-əqraba, dost-tanış arasında olduqları bir vaxtda onları telefona bağlayan nədir? Daha parlaq gələcəyi, əziz və doğmalarını toyda deyil, üfüqlərdə axtarmaqdımı bu? Hələ indi – ömrün ən əziz anında telefon əsiri olan bu cütlüyün sabahkı taleyi nə olacaq?

Telefon aldıq, kitab oxumağı unutduq, kompüter, internet evə daxil oldu, vaxtımızın hesabını, ünsiyyəti, səmimiyyəti və özümüzü, ətrafımızı itirdik.

Telefon alışqanlığı – nomofobiya alkoqolizm, narkomaniya kimi xəstəlikdir. Onlar hamama və tualetə telefonla gedir, təbii ehtiyaclarını da sanki telefonun göstərişi ilə ödəyirlər. Doğmaları, yaxınları ilə münasibətlərini bəsitləşdirir, əlaqəni kəsir, işıqlı qəlbinə zülmət çökür, qaranlıq qəlblər isə insanı tənhalığa, yadlaşmaya aparır.

Naxçıvan Muxtar Respublikası Tibbi-Psixi Dispanserin baş həkimi, psixiatr Rəşadət Nabatov bildirir ki, əgər insan özünü tənha hiss edirsə, 1 il sonra onun depressiyanın əlamətlərini hiss etməsi riski artır. Əvvəl tanıdığım bir qadın depressiya əlamətləri ilə yanıma gəlmişdi. Deyir həkimə getdim, analiz verdim. Məndə Hepatit C tapıldı. Şoka düşdüm, “artıq ölürəm!” – deyə fikirləşirdim. Xəbər tutanlar elə düşünürdülər ki, mənimlə bir masada çörək kəssələr, onlar da Hepatit C-yə yoluxacaqlar. Məndən uzaqlaşdılar. İşdən çıxıb evə qapandım, ailəmdən xəlvət vəsiyyətnamə yazdım.

Qadına izah etdim ki, evə qapanmaqdansa, sağalması üçün mübarizə aparsın. Tövsiyəmi dinləyib xəstəxanaya yollandı. Sağaldı və erkən yazdığı vəsiyyətnaməni cırıb atdı. Odur ki, deyirəm, əksər xəstəliklər tənhalıqdan qaynaqlanır. Müalicəsi sizi anlayacaq adamlarla real, əhəmiyyətli münasibətlər qurmaqdan keçir. Tənhalıqdan qurtulmaq istəyən kəs öncə evində normal münasibətlər qurmalı, dost-tanışla rastlaşanda üzünü yana tutmamalıdır. Əgər səndən küsən, inciyən varsa, təkəbbürü bir yana qoyub onun könlünü almalı, barışmağı bacarmalasınız. Özünəqapanma bütün xəstəliklərin risk faktorudur.

Psixiatr onu da bildirdi ki, tənhalıqdan qurtuluşun yalnız bir yolu var: Həyat eşqi. Bu eşq insanın daxiliyanma mühərriki, insanı mənəvi və fiziki ölümün caynağından qoruyan talismandır. Doğmalarını, əzizlərini ahıl çağında, dar ayaqda yalqız qoyub gedənlər onları Cek Londonun “Həyat eşqi”ndə olduğu kimi, təkcə xəstə canavara yox, həm də “həyat” adlı yalquzağın asan yeminə çevrilirlər. Depressiyalar onları həyatın dibinə – girdablara doğru çəkir. Bataqlıq onları udmaq istəyi ilə alışıb yanır. Mübarizlik isə yazıçının həyat lüğətindən silinmişdi.

Psixiatrın fikrincə, insanı inam, ümid, mübarizə tərk etməsə, o, həyatın bütün sınaqlarından, keşməkeşlərindən qələbə ilə çıxa bilər. Ümidi ölən insan əvvəlcə mənəvi, daha sonra fiziki cəhətdən məhv olur. Təkcə yol yoldaşını yox, həm də özünü tənhalığın qucağına atan insan təbiətlə, həyatla çarpışmalarda uduzur mütləq. İradəli insanlar isə ölümə qalib gəlirlər, heç vaxt ölmürlər. Böyük Bəxtiyar Vahabzadə deyirdi ki, meşələr sultanı, meşələr şahı aslanın özü də yalqız olmasın.

...Günəşin qürub çağıdır. İşdən çıxıb evə yollanıram. Sağımdan-solumdan insanlar keçir. Kimisi təbəssümlə, kimisi dalğın, kimisi fikirli, qəmgin. Kimisi dostları ilə görüşə, kimisi də evdə onu gözləyən tənhalığa sarı yürüyür. Qarşıdakı döngədən əvvəlcə molla, sonra çiynində tabut aparan adamlar çıxaraq yolun piyada keçid xəttinə sarı addımlayırlar. Avtomobillərin hərəkəti dayanır, bəzi sürücülər ehtiram ifadəsi olaraq maşından düşüb ölənə rəhmət diləyirlər. Rəhmətlik həmin qarıdır, dəfn etməyə aparırlar. Gözüm oğlunu axtardı, orada yoxdu, hələ gəlib çıxmamışdı.

***Hüseyn ƏSGƏROV,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 265 (30669) 1 dekabr 2024-cü il, bazar

## “Güləş ulduzları”nın “qızıl” ulduzu

**Qazaxıstanın paytaxtı Astanada keçirilən sərbəst güləş üzrə “Güləş ulduzları liqası”nda Azərbaycan güləşçisi uğurla çıxış edib.**



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, turnirdə Ağanəzər Novruzov (74 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Həmyerlimiz əvvəlcə qazaxıstanlı Kanat Mussabekovu 3:1 hesabı ilə məğlub edib. Novruzov daha sonra rusiyalı Anzor Zakuyevi üstələyib - 2:1. Ağanəzər finalda isə özbəkistanlı Mirzo Xaitova 4:1 hesabı ilə qalib gəlib..

*L.QURBANOVA*
*XQ*

## OXUCULARIN NƏZƏRİNƏ!

### “Xalq qəzeti”

### *2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# *Sergey Yesenin: “Əlbəttə, mən dəcəl idim”*

## Lakin Rusiya onun şıltaqlıqlarını şeirlərindən heç də az sevmirdi!

**XX əsrin əvvəllərindəki rus poeziyasında Sergey Yesenindən daha populyar və qalmaqallı bir insan tapmaq mümkün deyil. Əyalətdən paytaxta az qala kiçik bir dağarcıqla gələn, “yüksək cəmiyyət”in, hətta imperator ailəsinin hörmətini qazanan “kənd şairi” inqilabdan sonra davakar və barlardan yığışmayan eyş-işrət adamı kimi tanındı. Bütün Rusiya onun şeirlərini əzbərdən bilir və sevirdi, hətta bu gün də, şairin ölümündən təxminən 1 əsr sonra belə, bu poetik nümunələr insanların dilindən düşmür.**

Bu günlərdə “Lenta.ru” saytında “Görkəmli adamların həyatı” seriyasından Yeseninin taleyinin diqqət çəkən məqamları ilə bağlı Yevgeni Şulginin çox maraqlı bir materialını oxudum və mətni qısa ixtisarlarla qəzetimizin oxucularına təqdim edirəm.

...1919-cu il mayın 28-də səhər Moskvanın mərkəzində sanki fırtına qopmuşdu. O vaxta qədər ləğv edilmiş, lakin yüzlərlə rahibə üçün sığınacaq kimi xidmətini davam etdirən “Müqəddəs” monastırının qarşısındakı meydanda insan əlindən tərpənmək mümkün deyildi. Milislər nəqliyyatın hərəkətini əngəlləyən izdihamı dağıtmağa çalışırdılar. Əllərində sabunlu hamam lifləri olan rahibələr monastırın tünd çəhrayı divarında ağ rənglə yazılmış yazını əsəbi halda silməyə çalışırdılar:

**Budur o kök baldırlılar**
**O, ədəbsiz divarın arxasındadır.**
**Gecələr burada o rahibələr**
**Məsihin şalvarını soyundururlar**

Bu 4 misralıq şeir sabunlu liflərə təslim olmur və divardan qopub düşmək istəmirdi. Rahibələr sonra bu sətirləri baltalarla qoparmağa çalışdılar, amma boya kərpicin canına hopmuşdu. Kütlə ağız-ağıza verib divardan qırmızı fənərlər asmağı təklif edirdi. Yalnız atlı milislərin gəlişi ilə meydandakılar dağılışmağa başladılar...

Bir qapalı şeir gecəsində dostları Yesenindən soruşdular: “Bu, nəyə lazım idi?” Şair təbəssümlə cavab verdi: “İl hansı il idi? Monastırlar əksinqilaba tərəf keçirdilər. Əlbəttə, mən dəcəllik etdim. Ancaq ehtiraslı monastır sakitləşdi...”

Yesenin XX əsrin əvvəllərindəki poetik Rusiyanın əsas davakarı, ulduzu və sirridir. Onun şəxsiyyəti miflərlə pərdələnib. Bəzilərini o, çox diqqətlə özü yaradıb, digərləri isə onun iştirakı olmadan peyda olub. Axı Yeseninin həyatı bir məşhurun həyatı idi, şairi bütün ölkə tanıyırdı. Kütlə onun hər addımını izləyirdi.

Küçələrin adlarının kütləvi surətdə saysız-hesabsız marksist və kommunistlərin adlarına dəyişdiriləndə, Yesenin və onunla həmfikir olan şairlər bundan yararlanıb paytaxtın mərkəzində “Kusikova küçəsi”, “Yesenin küçəsi”, “Marienhof küçəsi”, “Şerşeneviç küçəsi” kimi lövhələr asaraq öz adlarını əbədiləşdirmək fikrinə düşmüşdülər. Siyasi nümayişlərin sonsuz axınına qoşulmağa çalışan imajinistlər (təxayülçülər), Moskva boyu sənətçilərin “ümumi səfərbərliyi” haqqında yayılan vərəqələrlə hakimiyyəti təşvişə salırdılar. Yesenin və “mədəni mitinqlər”in digər təşkilatçıları Moskva Fövqəladə Komissiyasına çağırıldılar və onları bu mitinqi tərk etməyə məcbur etdilər.

Monastırdakı aksiyadan bir neçə ay əvvəl isə Yesenin Şairlər İttifaqının klubunda “imajinistlər”in “bədii məhkəməsi”ndə peyda olmuşdu və orada elə alovlu çıxış etmişdi ki, şair tribunanı tərk edəndə zalı qəhqəhələr və alqışlar bürümüşdü.



Sonra o, şəxsən özü “imajinistlər”in ədəbiyyat üzərində “məhkəmə”sini qurdu və burada onun Vladimir Mayakovski ilə əfsanəvi polemikası baş verdi.

Lidiya Seyfullina yazır: “Şıq kostyumda arıq və çox da hündür olmayan Yesenin rəyasət heyətinin masasına atıldı. Uşaq kimi əsəbiləşmişdi, qeyzlə qalstukunu dartıb boğazından çıxardı, yüngülcə yağlanmış qızılı saçlarını barmaqları ilə geriyə darayıb gur, aydın, həm də güclü səslə, lakin Mayakovskidən fərqli tembrlə qışqırdı:

– Poeziyanı biz yox, siz öldürürsünüz! Siz şeir yox, aqitez (təbliğat şeirləri-müəllif) yazırsınız!

Mayakovski də qalın səslə cavab verdi:

– Siz də sərsəm misralar uydurursunuz...

Yesenin papaqsız, açıq boz rəngli kürkdə dayanmışdı, mavi gözləri od kimi yanırdı. O, sağa-sola yellənə-yellənə, hirslə, tərəddüd etmədən danışırdı:

– Baxın mənə, mən necə bir poeziya ulduzuyam...Amma mən heç bir bəzəkdüzək vermədən deyirəm: Mayakovski nə qədər fırlanır-fırlansın, onun qəzet şeirlərinin ölüm saatı yaxındadır. “Aqitez”in taleyi belədir!

– Bəs sizin uydurmalarınızın taleyi necə olacaq? – deyə Mayakovski yerindən qışqırdı.

– Mənim madyanım ryazanlıdır, rusdur. Sizinsə şalvarınızda “buludlar” (Mayakovskinin məşhur “Şalvarlı bulud” şeirinə eyham vurulur – müəllif) var! Bu, rus obrazıdırmı? Bu, Qərb modernistlərinin təqlididir...

Mayakovski ildırım kimi gurultulu səsi ilə etiraz etməyə başladı...”

Yesenin XX əsrin rus poeziyasının ən güclü qan damarı, arteriyası idi. Bununla belə, onun ictimai obrazı müasirlərinin dediklərindən son dərəcə fərqli idi.

Şairini rəsmi tərcümeyi-halı məktəb illərindən hər kəsə məlumdur. O, 1895-ci il oktyabrın 3-də Ryazan quberniyasının Konstantinovo kəndində anadan olub, “zemstvo” və “kilsə-prixod” məktəblərində oxuyub. Sonra Moskvada yaşayıb, mətbəədə işləyib, Moskva Şəhər Xalq Universitetinin tarix-fəlsəfi fakültəsində təhsil alıb. İlk şeirləri 1914-cü ildə uşaq jurnalında dərc olunub. 1 il sonra imperiyasının paytaxtı Petroqrada yollanıb və burada Aleksandr Blok onu ədəbi dünyaya təqdim edib.

Yesenin özü gəncliyi haqqında çox az yazıb, hətta özü haqqında hekayətləri bəzən köklü dəyişikliklərə məruz qoyub. Şair bütün ömrünü özünün şəxsiyyəti haqqında mif yaratmaqla keçirib. Ölümündən bir müddət əvvəl isə o, “daha xatirələr yazmayacağını” bəyan edib: “Qoy barəmdə əfsanələr dolaşsın!” Belə də oldu.

Yesenin o qədər məşhur idi ki, “Tsarskoye selo” Liseyində İmperator qarşısında çıxış etmişdi. Yeseninin şöhrətə gedən yolunu Birinci Dünya müharibəsi ləngitdi, onu orduya çağırdılar. Yüksək cəmiyyətdəki əlaqələrindən istifadə edərək Yesenin imperatriça Aleksandra Fedorovna adına “Tsarskoye Selo” hərbi-sanitariya qatarına təyinat aldı.

Yesenini imperator xanımının və qızlarının mərhəmət bacısı kimi xidmət etdiyi “Tsarskoye selo” xəstəxanasında ali kübar xanımlara şeirlər oxumağa başladı. Sonralar Yesenin tanışlarına Anastasiya Romanova ilə arxa pilləkəndə oturaraq ona necə şeir oxuduğunu, öpdüyünü və hətta xama yedizdirdiyini danışarmış...

Bu dəlilləri xatırlayarkən, Yeseninin “xalqın şairi” mifinə təsir edən başqa bir keyfiyyətini – onun zəngin poetik təxəyyüllə “birinin üstünə beşini qoyub uydurmaq həvəsi”ni xüsusi qeyd etmək lazımdır.

1917-ci ilin fevralından sonra şair Müvəqqəti Hökumətin ordusunda xidmət etməkdən yayınır. Ölkə siyasi böhran keçirərkən, o, Voloqda vilayətinin Kiriki-Ulita kəndində Zinaida Reyx ilə nişanlanır. Buna qədər Yeseninin artıq bir arvadı var idi, həm də qeyri-rəsmi – 1913-cü ildə mətbəədə tanış olduğu Anna İzryadnova. Qeydiyyatsız nikahdan cütlüyün bir oğlu da olmuşdu.

Reyxlə evlilik də uzun sürmədi. Bir neçə ildən sonra Yesenin hamilə arvadını qucağında yaşyarımlıq qızı ilə tərk etdi. Və elə dərhal yeni bir ehtirasla, “imajistlər”ə qoşulan şairə və tərcüməçi Nadejda Volpinlə münasibətlərini yaxınlaşdırmağa başladı. Volpindən ayrılıq isə onun hamilə qaldığı zaman baş verdi. Şairə Yesenindən nikahdankənar bir oğul da dünyaya gətirdi.

Bundan sonra Yesenin diqqətini yenidən Reyxə çevirdi. Reyx uşaqlarını övladlığa götürən, onu teatrında aktrisa edən rejissor Vsevolod Meyerholdla tanış oldu və ona ərə gedib soyadını qəbul etdi (özünü Meyerhold-Reyx adlandırdı). Keçmiş həyat yoldaşının uğurundan təəccüblənən şair yenidən onunla görüşmək üçün məqam axtarmağa başladı. Həm də tez-tez və sərxoş halda. Teatr rəssamı Vasili Komardenkov xatırlayır ki, “imajistlər”in “Pegasus dayanacağı” kafesində Yesenin sərxoş olandan sonra gecədən xeyli keçmiş belə onu Meyerhold-Reyxin evinə sürükləyir, qapını döyür və uşaqları ona göstərməyi tələb edirdi.

Şayiələrə görə, inadkar şair Zinaidanı geri qaytarmaq istəyirmiş. Bu şıltaqlıq qismən baş tutur. Meyerholdun həyat yoldaşı onunla gizlincə görüşməyə başlayır. Ancaq o, faciəli və dəhşətli ölümünə qədər teatrın direktorundan rəsmi olaraq ayrılmır: Meyerhold təhlükəsizlik işçilərinin əli ilə həbs edilir, Reyx ərinin həbsindən dərhal sonra qəribə şəraitdə ölür.

Yesenin ən məşhur şeirlərindən biri olan “Qadına məktub”unu da məhz Zinaidaya həsr etmişdir:

**Məni bağışlayın...**
**Bilirəm: siz o, deyilsiniz –**
**Siz yaşayın**
**ciddi, ağıllı ərinizlə;**
**Sizə xidmətim lazım deyil,**
**Heç mən özüm də sizə,**
**Zərrəcən lazım deyiləm.**

Yeseninin həyatında qadınlar çox idi - illər sonra məzarının başında intihar edən Qalina Benislavskaya, Avropa və ABŞ-a birlikdə qastrol səfərinə getdiyi məşhur amerikalı balerina Aysedora Dunkan, Bakıda yaşayarkən “Şahanəm, mənim Şahanəm!” şeirini həsr etdiyi Şaqane Talyan, intihar etməzdən əvvəl tərk etdiyi, əvvəlcədən bank hesabından bütün pullarını çıxardığı Lev Tolstoyun nəvəsi Sofya.

Yesenin xanımların qəlbini fəth etməyi, həqiqətən, xoşlayırdı və xanımlar isə bütün ölkədə məşhur olan yaraşıqlı şairin onların qulluğunda durmasından məmnun qalırdılar.

Bununla belə, qohumlarının hekayələrinə görə, Yeseninin qadınlara münasibəti olduqca narsistik və infantil idi, saysız-hesabsız sevgi macəraları haqqında hekayətlər isə onun bədnam “arvadbaz” mifinin yaranmasını şərtləndirirdi.

**(ardı var)**

*Çevirəni:*
*İlqar RÜSTƏMOV*
*XQ*

## Mey Lanfan – Bülbülün çinli dostu

**Azərbaycan Dillər Universitetinin Konfutsi İnstitutunda “Pekin Operası mədəniyyət fenomeni kimi” adlı toplantı keçirilib. Məclis Pekin Operasında “Dan” qadın rolunun görkəmli ifaçısı Mey Lanfanın anadan olmasının 130 illiyinə həsr edilib.**



ADU-nun Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov Azərbaycan–Çin teatr sənəti əlaqələrinin tarixindən, eləcə də mədəni əməkdaşlığın səmərəli inkişafından, hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsindən, musiqili teatr qrupları və ifaçılarının mübadiləsindən danışıb.

O, Mey Lanfan ilə Azərbaycan peşəkar vokal sənətinin banisi, görkəmli opera müğənnisi Bülbül arasındakı dostluq münasibətlərindən, hər iki ölkənin opera incəsənətinin sintezi vasitəsilə Azərbaycan və Çin mədəniyyətinin yaxınlaşdırılması üzrə bu iki sənətkarın xidmətlərindən bəhs edib.

Təqdimatlarla çıxış edən ADU-nun Çinşünaslıq fakültəsinin tələbələri Çin operasının müxtəlif regional forma və janrlarından, Mey Lanfanın Pekin Operasında apardığı islahatlardan danışıblar.

Bildirilib ki, Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettası Pekində Çin dilində ilk dəfə 1959-cu ildə “Tantsiyao” teatrının səhnəsində tamaşaya qoyulub. Sonradan Çin Milli Operasının Uxan Eksperimental Opera Teatrı və Tyanczin Milli Bədii Teatrında, Çinin digər şəhərlərində “Arşın mal alan” operettası 300 dəfədən çox səhnələşdirilib.

*XQ*

**Hava**

## Abşeronda buludlu və çiskinli, bölgələrdə yağış, duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə çiskinli olacağı, axşam isə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 6-8°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 772 mm civə sütunu,nisbi rütubət 70-75 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° , gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi “İqtisadiyyat və həyat” jurnalının baş redaktoru Bəhlul Eminova anası

**BİBİXANIM EMİNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2745
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00